www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 22 iyun 2018-ci il Cümə № 133 (7022) Qiymәti 60 qəpik

**Xəbər**

## İranla sərhəddə atışma - DSX rəisi Göytəpəyə getdi

yazısı səh.5-də

**Gündəm**

### AŞ PA-nın yay sessiyası öncəsi Bakıya təzyiqlər başladı - Aİ bəyanat yaydı



Avropa İttifaqı yenidən siyasi məhbus məsələsini qaldırıb; **Fəzail Ağamalı:** "Avropa İttifaqının Azərbaycana qarşı münasibəti heç bir halda qəbul edilən deyil"

yazısı səh.8-də

### Yeni hökumətin iki ayı - kim necə qiymətləndirir?

yazısı səh.7-də

### Göyçayda dağılan körpü 7 vəzifəli şəxsi həbsə apardı-rəsmi

yazısı səh.3-də

### Təhsil Nazirliyi hesabat verdi

yazısı səh.6-da

*Eldar İbrahimov:*

### "Nazirə qarşı təxribatdan söhbət gedə bilməz"

yazısı səh.3-də

### Siyasi ekspert müdafiə nazirinin son mesajlarını dəyərləndirdi

yazısı səh.9-da

### "GünayBank"ın keçmiş sədr müavini tutuldu

yazısı səh.3-də

### Möhtəşəm hərbi paradda nələr olacaq?

yazısı səh.9-da

### Bakının köhnə "xruşşovkalar" problemi

yazısı səh.12-də

### Netanyahunun arvadı dələduzluqda ittiham olunur

yazısı səh.2-də

### Ərdoğandan seçkidən sonra koalisiya mesajı

yazısı səh.4-də

## "Məğlubedilməz" erməni ordusu ifşa olur - faktlar

# XOCALI CANİLƏRİNƏ İRƏVANDA HƏBS TƏLƏBİ - BAKI ÜÇÜN UNİKAL FÜRSƏT

Erməni əsgər anaları üsyana qalxdı; "Serj Sərkisyan, Seyran Ohanyan da tutulsun!.."; işğalçı ölkədə terror siyasi rəqabətdə əsas mübarizə üsullarından birinə çevrilir; Nikol Paşinyan aradan götürülə bilərmi?..




yazısı səh.7-də

## Oliqarxların süni balıq gölləri ləğv edilir - milyonluq ziyan

Vaxtilə əkin üçün münbit olan ərazilər süni balıq göllərindən tam təmizlənəcək

yazısı səh.12-də



### Ziya Məmmədovun holdinqi "sökülür"

yazısı səh.10-da



### Mariya Zaxarovanın anti-Azərbaycan mövqeyinin pərdəarxası

yazısı səh.4-də



### Elçibəy iqtidarı rus qoşununu Azərbaycandan pulla çıxarıb - təfsilat

yazısı səh.5-də



## Lavrov yenə Qarabağdan danışdı

**"BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qətnamələri hərbi əməliyyatlar dövründə qəbul olunub".**

APA-nın məlumatına görə, bu sözləri Rusiya xarici işlər naziri Sergey Lavrov BMT baş katibi Antonio Quttyereşlə birgə keçirdiyi mətbuat konfransında BMT TŞ-nin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəbul etdiyi qətnamələrin hələ də yerinə yetirilməməsi ilə bağlı suala cavabında deyib.

S. Lavrov bildirib ki, bu qətnamələr ərazidə atılan addımlar, o cümlədən Rusiya tərəfindən görülən işlərlə birlikdə qanlı hadisələri dayandırmağa və prosesi siyasi dialoq məcrasına daşımağa imkan verib: "Hər kəsin razılığı ilə Minsk Qrupu yaradıldı və onun çərçivəsində ərazilərin azad edilməsi, Dağlıq Qarabağın yekun statusunun müəyyənləşdirilməsi yolu ilə siyasi həllə nail olunmasına dair razılığa gəlindi. Biz hamımız hələ də bu işlə məşğuluq. Moskva digər həmsədr ölkələr olan Fransa və ABŞ ilə birlikdə rəsmi Bakı və Yerevanın tam razılığı ilə qarşımızda duran vəzifələrin yerinə yetirilməsi üçün bunun üzərində işləyir. Bunun baş verməsi üçün münaqişə tərəfləri arasında konsensusun olması vacibdir və biz bu istiqamətdə irəliləyən kimi, əminəm ki, münaqişənin həlli çox da uzaqda olmayacaq".



## Bakıda V və VII siniflərə qəbul üzrə müsabiqənin vaxtı açıqlanıb

**Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki lisey və məktəb-liseylərin V və VII siniflərinə qəbulla bağlı müsabiqənin vaxtı açıqlanıb.**

İdarədən APA-ya bildirilib ki, lisey və məktəb-liseylərin V və VII siniflərinə qəbul iyunun 22-də müsabiqə yolu ilə aparılacaq. Müsabiqədə şagirdlər ana dili, riyaziyyat və məntiqə aid test tapşırıqlarını yerinə yetirəcəklər.

Qeyd edək ki, Texniki-Humanitar Lisey, 2 nömrəli Texniki-Humanitar Lisey, 147 nömrəli Texniki-Humanitar Lisey və 291 nömrəli Ekologiya Liseyinin V sinfinə şagird qəbulu valideynin (qanuni nümayəndənin) elektron ərizəsinin mektebeqebul.edu.az saytında qeydiyyatı yolu ilə həyata keçirilib.

Elektron sistem (mektebeqebul.edu.az) vasitəsilə liseylərin V sinfinə qəbul üçün 1315 sorğu yerləşdirilib. Onlardan 848-i Texniki-Humanitar Liseyə, 111-i 2 nömrəli Texniki-Humanitar Liseyə, 171-i 147 nömrəli Texniki-Humanitar Liseyə, 185-i isə 291 nömrəli Ekologiya Liseyinə qəbul üçün qeydiyyatdan keçib.

BŞTİ-nin tabeliyindəki 23 məktəb-lisey və liseyin VII sinfinə (20, 62, 70, 72, 83, 166, 213, 220, 246, 252, 261, 264, 267, 275, 299, 49, MLK, 2 nömrəli Texniki-Humanitar Lisey, 147 nömrəli Texniki-Humanitar Lisey, 291 nömrəli Ekologiya Liseyi, Texniki-Humanitar Lisey, 16 nömrəli Texniki-Humanitar Liseyə, 287 nömrəli "Zəkalar" Liseyi) sənəd qəbulu prosesi də başa çatıb.

Tədris planına əsasən, lisey və məktəb-liseylərin VII siniflərinə qəbul üzrə müsabiqədə profil sahəsinə uyğun olaraq (humanitar, texniki, təbiət) 2142 şagird iştirak edəcək.

## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

# QAT Qarabağ mitinqi üçün yenidən BŞİH-ə müraciət etdi

**Qarabağ Azadlıq Təşkilatı İdarə Heyəti Qarabağ mitinqinin keçirilməsi ilə əlaqədar iyunun 21-də qərar qəbul edib. QAT mətbuat xidmətindən "Yeni Müsavat"a verilən məlumata görə, Qarabağ mitinqinin 2018-ci il iyulun 21-də, saat 15.00-dan 17.00-dək 10 min nəfərin iştirakı ilə Yasamal rayonu ərazisində "Məhsul" stadionunda və ya təklif ediləcək digər yerdə keçirilməsinə şərait yaradılması üçün Bakı Şəhər İcra Hakimiyyətinə rəsmi məktub ünvanlayıb.**




Məktubda mitinqdə "Qarabağa azadlıq!", "Ya Qarabağ, ya ölüm! Başqa yol yox artıq!", "Beynəlxalq qurumların qərəzli vasitəçiliyini rədd edirik!" şüarlarının səsləndiriləcəyi, eyni məzmunda plakatlar qaldırılacağı, çıxışlar ediləcəyi, qətnamə qəbul olunacağı bildirilir.

**QAT-ın yaydığı rəsmi açıqlamada deyilir:** "QAT hesab edir ki, torpaqlarımızın bu qədər uzun müddətə işğal altında qalmasına artıq dözmək olmaz. İşğalçı Ermənistan Qarabağımızda ağalıq edir, ərazilərimizin sərvətlərini amansızcasına talan edir, qanunsuz məskunlaşdırma həyata keçirir, erməniləri oraya köçürür, oranı Ermənistanın bir hissəsi kimi idarə edir, işğalçı ölkənin prezidenti, baş naziri və digər nümayəndələri istədikləri vaxt oraya səfərlər edirlər. Beynəlxalq təşkilatlar bu prosesləri kənardan müşahidə edir, heç bir təsirli addımlar atmaq istəmirlər. Bu rəzalətə birdəfəlik son qoyulmalı, torpaqlarımız işğaldan azad edilməlidir. Mitinqin məqsədi qarabağlıların, bütün qarabağsevərlərin, Azərbaycan cəmiyyətinin Qarabağla bağlı vahid iradəsinin nümayiş etdirilməsindən ibarətdir. Azərbaycan xalqının vahid iradəsinin nümayiş etdirilməsinə şərait yaradılmalı və xalqın iradəsinə arxalanaraq torpaqlarımızın azadlığı üçün dərhal ən radikal addımlara əl atılmalı, işğalçılara qarşı azadlıq müharibəsinə başlanmalıdır. Qarabağ mitinqi artıq cəmiyyətdən gələn sosial sifarişə çevrilmişdir, hər bir azərbaycanlının istək və tələblərinə cavab verir. Biz Azərbaycanda və ya kənarda yaşamasından, siyasi mənsubiyyətindən, iqtidarda və ya müxalifətdə olmasından, işindən, məşğuliyyətindən, sosial vəziyyətindən asılı olmayaraq hər bir azərbaycanlının mitinqə dəstək verəcəyinə, iştirak edəcəyinə əminik".

Qeyd edək ki, bundan əvvəl mayın 12-də QAT eyni ünvanda Qarabağ mitinqi keçirmək üçün aprelin 4-də BŞİH-ə rəsmi müraciət etmişdi. Lakin müraciətə sonadək heç bir cavab verilməmişdi. Bu səbəbdən mitinq keçirilməmişdi.

**❑ Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

## "Avropa İttifaqı Minsk Qrupunu dəstəkləyir"

**"Avropa İttifaqı ATƏT-in Minsk Qrupu həmsədrlərinin vasitəçilik səylərini və təkliflərini dəstəkləməyə davam edir".**

APA-nın məlumatına görə, bu sözləri Avropa ittifaqının Xarici Əlaqələr və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndəsi Federika Mogerini Brüsseldə Ermənistan xarici işlər naziri Zoqrab Mnatsakanyanla keçirdiyi mətbuat konfransında deyib.

O bildirib ki, görüşdə Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin vacibliyini müzakirə ediblər: "Bütün qətiyyətimizlə prosesləri töhfə verməyə davam edəcəyik".

## ATƏT nümayəndələri Azərbaycanda

**ATƏT yanında 25 daimi nümayəndədən ibarət heyət Azərbaycana gəlib.**

APA-nın xəbərinə görə, əvvəlcə Ermənistan və Gürcüstana səfər etmiş səfirlər ölkə rəhbərliyi, parlament nümayəndələri və vətəndaş cəmiyyəti üzvləri ilə görüşəcəklər.

Bildirilir ki, səfərin məqsədi səfirlərin ATƏT öhdəlikləri və prinsiplərinə uyğun olaraq stabillik, sülh və rifaha dəstəklərini nümayiş etdirməsidir.

## Yay fəsli başladı

**Azərbaycana yay fəsli gəlib. Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) N.Tusi adına Şamaxı Astrofizika Rəsədxanasında APA-ya verilən xəbərə görə, yayın Azərbaycana gəlişi bu gün Bakı vaxtı ilə saat 14:07-də baş verib.**

Bildirilib ki, payızın Azərbaycana gəlişi sentyabrın 23-ü, Bakı vaxtı ilə saat 05:54-də, qış fəslinin başlanması isə dekabrın 22-si, Bakı vaxtı ilə saat 02:22-də baş verəcək.



## Şəxsi evlərin satışına dair yeni tələb

**Daşınmaz əmlak üzərində sərəncam verilməsi ilə bağlı notariat qaydasında təsdiq edilən müqavilələr üzrə tərəflərdən birinin digərinə ödəməsinin hansı halda notariusun bankda açdığı depozit hesabı vasitəsi ilə həyata keçiriləcəyi müəyyənləşib.**

APA-nın məlumatına görə, bu, Nazirlər Kabinetinin "Azərbaycan Respublikasında notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimat"da dəyişikliklər edilməsi barədə qərarında əksini tapıb.

Daşınmaz əmlak üzərində sərəncam verilməsi ilə bağlı notariat qaydasında təsdiq edilən müqavilələr üzrə 5 min 500 manatdan artıq vəsaitin tərəflərdən birinin digərinə ödəməsi notariusun bankda açdığı depozit hesabı vasitəsilə həyata keçirilməlidir.

İpoteka predmetinin satışına dair də prosedur müəyyənləşib. İpoteka saxlayanın razılığı ilə, o cümlədən ipoteka saxlayanla ipoteka qoyanın notariat qaydasında təsdiq edilmiş razılaşması üzrə ipoteka predmeti satılarkən, əldə olunan vəsait notariusun depozit hesabı vasitəsilə qanunvericiliyə uyğun olaraq bölüşdürüləcək.



## "Məni Elmarla dəyişik salırlar..."

**"Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarovla xarici görkəmcə bir-birimizə çox oxşayırıq, bəzən bizi qarışdırırlar. Toplantılarda mənə Azərbaycan barədə suallar verəndə əvvəl türk olduğum üçün soruşduqlarını zənn etdim. Heç demə Elmarla məni qarışdırıblar".**

Bunu Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu "Vatan" qəzetinə müsahibəsində deyib. Çavuşoğlu da deyib ki, Məmmədyarovu da hərdən onunla qarışdırırlar. "Ona da bir dəfə təyyarədə Türkiyə barədə sual veriblər, elə biliblər mənəm" - Çavuşoğlu deyib.

## Netanyahunun arvadı dələduzluqda ittiham olunur

**İsrailin baş naziri Benyamin Netanyahunun xanımı dələduzluqda ittiham olunur.**

Modern.az xarici KİV-ə istinadən xəbər verir ki, o, büdcədən 100 min dolları təyinatı üzrə xərcləmədiyi üçün dələduzluqda ittiham olunur.

İsrail Ədliyyə Nazirliyi 2010-2013-cü illər ərzində Sara Netanyahunun prezident iqamətgahında aşpazının olmasına rəğmən, restoranlardan yemək sifariş verməsini müəyyən edib. Qanun isə aşpaz iqamətgahda olarkən, qıraqdan yemək sifarişini qadağan edir.

Bundan başqa, Sara Netanyahunun bu qaydaları bilərək pozduğu müəyyən edilib.

## Günəşdə partlayış baş verib

**İyunun 21-i səhər saatlarında Günəşdə partlayış qeydə alınıb.**

"Trend"in məlumatına görə, bu partlayış zəif (C) və orta (M) kateqoriyalar arasında yer alıb.

Qeyd olunur ki, Yerə təsir göstərən ən zəif kateqoriya hesab olunan C kateqoriyalı partlayış sonuncu dəfə bu il martın 30-da qeydə alınıb.

Mütəxəssislər son partlayışın təsirinin çox olmayacağını ehtimal edirlər.

YENİ MÜSAVAT
N 133 (7022) 22 iyun 2018

# Göyçayda dağılan körpü 7 vəzifəli şəxsi həbsə apardı-rəsmi

## Baş Prokurorluq, Daxili İşlər, Fövqəladə Hallar, Ekologiya və Təbii Sərvətlər nazirlikləri birgə məlumat yaydı

**Göyçay çayı üzərindəki körpünün dağılması ilə bağlı 7 vəzifəli şəxs həbs olunub.**

Bu barədə Respublika Baş Prokurorluğu, Daxili İşlər, Fövqəladə Hallar, Ekologiya və Təbii Sərvətlər nazirliklərinin mətbuat xidmətlərinin yaydığı birgə məlumatda deyilir.

Məlumatda qeyd olunur ki, 2018-ci il iyun ayının 2-də Göyçay rayonu ərazisində baş vermiş güclü leysan zamanı Bakı-Şamaxı-Yevlax yolunun 217-ci kilometrində Göyçay çayı üzərində yerləşən körpü qum-çınqıl yataqlarında aparılan qanunsuz istismar işləri səbəbindən uçaraq yararsız vəziyyətə düşüb, nəticədə dövlətə 3 milyon manatdan artıq ziyan dəyib.

Bununla əlaqədar Azərbaycan prezidenti İlham Əliyevin tapşırığına əsasən ayrı-ayrı şəhər və rayonlarda fəaliyyət göstərən 250-yə yaxın qum-çınqıl karxanasından 81-də monitorinq aparılıb. Müəyyən edilib ki, son dövrlər bəzi dövlət orqanları və sahibkarlıq subyektləri tərəfindən yer təkinin qorunması, xüsusən çay yataqlarının istifadəsi sahəsində qanunvericiliklə müəyyən edilmiş standartlar, normativlər, qaydalar və lisenziyalaşdırma şərtləri kobud surətdə pozulduğundan ətraf mühitə, infrastruktur obyektlərə, su təchizatı şəbəkələrinə, hidrotexniki qurğulara və sahil bərkitmə bəndlərinə ciddi təhlükə yaranıb, çay məcraları kəskin eroziyaya məruz qalıb.

Aşkarlanmış qanunsuzluqlarla bağlı toplanılmış materiallar əsasında Azərbaycan Respublikasının Baş Prokurorluğunda Cinayət Məcəlləsinin 192-ci (qanunsuz sahibkarlıq), 255-ci (yerin təkinin qorunması və istifadəsi qaydalarını pozma) və 308-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə cinayət işləri başlanılıb, eləcə də hüquq mühafizə orqanlarının təcrübəli əməkdaşlarından və aidiyyəti dövlət qurumlarının mütəxəssislərindən ibarət istintaq-əməliyyat qrupları yaradılaraq təxirəsalınmaz tədbirlər həyata keçirilib.

İstintaq araşdırmaları göstərib ki, karxanalardan 14-ü lisenziya və digər müvafiq sənədlər olmadan qanunsuz şəkildə qum-çınqıl istehsalı ilə məşğul olub, daha 41 karxana yataqların istismarının dayandırılması barədə Nazirlər Kabinetinin qərarına zidd olaraq fəaliyyətini davam etdirib və nəticədə dövlətə 16 milyon manatdan çox ziyan vurulub.

Konkret olaraq "Göyçay" qum-çınqıl yatağında istismar işləri aparan karxanalar ətraf mühitə 4 milyon manatdan çox, Mingəçevir şəhərində və Yevlax rayonunda yerləşən 16 karxana 700 min manatdan artıq, Şamaxı, İmişli, Şəmkir, Qazax, Quba, Qusar, Tərtər və Bərdə rayonları ərazisində yerləşən 56 karxana isə 8 milyon manatdan çox ziyan vurub.

Göstərilən hüquqazidd əməllərə yol verdiklərinə görə "ATF" MMC-nin təsisçisi və faktiki rəhbəri Fəxrəddin Muradov, "Azpod" MMC-nin qum-çınqıl zavodunun direktoru Nəcməddin Əliyev, "Elnicat" MMC-nin direktoru Bəhruz Sadayev, "Titanik-5" MMC-nin təsisçisi və faktiki rəhbəri Şahin Məmmədov, fiziki şəxslər Natiq Zakirov, Nazim Qasımov, Nəriman Yəhyayev Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək məhkəmənin qərarı ilə həbs olunublar. "Azəraqrartikinti" ASC-nin Göyçay qum-çınqıl filialının istehsalat rəisi Allahverdi Allahverdiyev və "Gülövşə" MMC-nin təsisçisi Mahir Allahverdiyev barəsində polisin nəzarəti altına vermə qətimkan tədbiri seçilib. "Attinak" MMC, "Bayburt Qrup" Anonim Şirkəti, habelə bir sıra digər hüquqi və fiziki şəxslər barəsində araşdırmalar davam etdirilir.

Hazırda istintaqı aparılan cinayət işləri üzrə bütün təqsirli şəxslərin müəyyən edilib məsuliyyətə cəlb olunması, ətraf mühitə vurulmuş ziyanın ödətdirilməsi və nəticələrinin aradan qaldırılması istiqamətində tədbirlər həyata keçirilir.



# "GünayBank"ın keçmiş sədr müavini həbs edildi

## Emin Zeynalov bir qrup əmanətçinin 100 milyon manata yaxın pulunu mənimsəyib

**"GünayBank"ın keçmiş sədr müavini, bankda qeyri-leqal pul dövriyyəsi sxemi qurub onlarla adamın 100 milyon manata yaxın vəsaitini mənimsəməkdə günahlandırılan Emin Zeynalov saxlanılıb. Virtualaz.org-a məlum olub ki, onu DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları tapıb yaxalayıblar.**




Emin Zeynalovun ötən ilin aprelində "GünayBank" ASC-nin idarə heyətinin sədr müavini təyin edilməsindən sonra banka uçota alınmayan on milyonlarla manat vəsait cəlb etdiyi və bu qeyri-leqal depozitlərə görə sahiblərinə hər ay 1-3 faiz pul ödədiyi, amma bir müddət sonra vəsaitlərlə birlikdə yoxa çıxdığı haqda sayt bir neçə gün əvvəl yazmışdı. Məlumatlara görə, Zeynalov pulları online valyuta birjası "Forex"ə yatırıb və iri məbləğdə ziyana düşüb. Onun bankın Müşahidə Şurasının sədri və səhmlərinin 90 faizə yaxınının sahibi Mahmud Məmmədova da milyonlarla manat borcu yaranıb. Zərərçəkənlər Zeynalovun barəsində hüquq-mühafizə orqanlarına müraciət ediblər.

Lakin bu məlumatlar və qeyri-leqal pul dövriyyəsi sxemi haqda mətbuatda yazılanlardan sonra E.Zeynalov ötən gün saytlardan birinə açıqlama verib. Deyib ki, barəsində yayılan məlumatlara görə DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə şikayət edib və "tədbir görülməsini" istəyib. İndi isə məlum olur ki, idarə bu irimiqyaslı maxinasiyaya yol vermiş bankirin özünü saxlayıb.



# Aqrar siyasət komitəsinin sədri pambıqçıların zəhərlənməsindən danışdı

## Eldar İbrahimov: "Nazirə qarşı təxribatdan söhbət gedə bilməz"

**"Uzun illər icra strukturunda işləyən biri kimi deyə bilərəm ki, burada nazirə qarşı təxribatdan söhbət gedə bilməz".**

Bunu modern.az-a Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov bölgələrdəki pambıq tarlalarında baş verən zəhərlənmələrə münasibət bildirərkən deyib.

Komitə sədri bu hadisələrlə bağlı aidiyyəti şəxslərlə əlaqə saxladığını bildirib: "Bəlli oldu ki, dərmanlama prosesinə də düzgün riayət edilib, yəni doza həddinin aşılması baş verməyib. Sadəcə, dərmanlardan istifadə qaydalarına riayət olunmayıb, fermerlər vaxtı düzgün seçməyib. Kolxoz, sovxoz dövrlərində sahələrin kənarında işçilər üçün süd, ayran qoyulurdu, temperaturun yüksək vaxtında insanları sahəyə çıxarmırdılar. Yəni buradan sahəni dərmanlayıb, oradan camaatı işə çıxartmırdılar. Bunu, sadəcə, məlumatsızlıqdan ediblər. Xəstəxanalara müraciət edənlərin hamısı yüngül zəhərlənənlərdir, şükürlər olsun ki, vəziyyəti ağırlaşan olmayıb. Sadəcə, maarifləndirmə işləri gücləndirilməlidir. Mən hesab edirəm ki, maariflənmə aparılmadığından belə hallar baş verib. Hadisə baş verən rayonlarda temperatur yüksəkdir. Bu cür istidə isə insanları sahəyə çıxarmaq olmaz".

**Deputatın kütləvi zəhərlənmə halının əvvəllər müşahidə edilmədiyi fikirlərinə münasibəti belə olub:**

"O vaxt da olurdu. Sadəcə, sovet dövründə internet, texnika bu dərəcədə sürətlə inkişaf etməmişdi ki, ucqar bir kənddə baş verən hadisədən xəbər tutaydıq. İndi bizim jurnalistlərimiz, informasiya saytlarımız bu cür xəbərləri göydə axtarırlar ki, manşet eləsinlər. Yəni bunun əleyhinə deyiləm, verilməlidir ki, insanlar məlumatlansın, maariflənsin. Yoxsa sovet dövründə də belə hallar yaşanırdı. Xatirimdədir, hamilə qadınları pambıq tarlalarında işləməyə qoymurdular ki, ana bətnində olan uşağa zərəri olar. İndi isə fermer deyir ki, mənim məhsulumu tez əkin, tez biçin. Bu da məsuliyyətsizlikdən irəli gəlir".

**E.İbrahimov nazir İnam Kərimovun Dövlət Fitosanitar Xidmətinin rəisi Camal Quliyevi vəzifəsindən azad etməsini doğru qərar sayıb:** "Bu yerində qərardır, düz edib. Demək, bu İnam müəllimin işinə məsuliyyətlə yanaşmasından irəli gəlir. Təzə nazir bölgələrə səfər edir, yerlərdə insanlarla görüşür, onların şikayətlərini özlərindən dinləyir".

# Gürcüstan-Azərbaycan sərhədində iranlı heroin alverçiləri saxlanılıb

**Gürcüstanda son 6 ay ərzində 72 narkotik alverçisi saxlanılıb.APA-nın yerli bürosunun məlumatına görə, bu barədə Gürcüstan Daxili İşlər Nazirliyinin nümayəndəsi Mamuka Çelidze keçirdiyi brifinqdə bildirib. O deyib ki, saxlanılan şəxslərin 4-ü İran vətəndaşıdır. Onlardan biri Marneuli rayonunda yaxalanıb və üzərində axtarış zamanı 282 bağlamada 800 qram heroin aşkar olunub.**

Digər İran vətəndaşının Tiflisdə qaldığı hotel nömrəsində axtarış zamanı 1 kiloqram çəkidə tiryək müsadirə olunub. Daha 2 İran vətəndaşı isə Gürcüstan-Azərbaycan sərhədində yerləşən "Sınıq körpü" sərhəd-keçid məntəqəsi ərazisində saxlanılıb. Onların üzərində axtarış zamanı 193 bağlamada 900 qram heroin aşkar olunub.

Saxlanılan İran vətəndaşlarını 8 ildən 20 ilədək və ya ömürlük həbs cəzası gözləyir. Gürcüstanda son 6 ay ərzində narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə çərçivəsində 13 kiloqram heroin, 7 min "subuteks" və "suboksin" həbləri, 1 kiloqram 300 qram kokain və digər psixotrop tərkibli narkotik vasitələr müsadirə olunub.

YENİ MÜSAVAT
N 133 (7022) 22 iyun 2018

**Rusiyanın Xarici İşlər Nazirliyinin İnformasiya və Mətbuat Departamentinin rəhbəri Mariya Zaxarovanın Azərbaycanı sevməməsi, ermənipərəst mövqedən çıxış etməsi yenidən gündəmə gəlib. Buna səbəb iyunun 1-də Rusiya XİN-in İnformasiya və Mətbuat Departamentinin direktor müavini Artyom Kojinin keçirdiyi mətbuat konfransıdır.**



# Mariya Zaxarovanın anti - Azərbaycan mövqeyinin pərdəarxası





## Hikmət Hacızadə: "Zaxarova güclü diplomat deyil"
## Elçin Mirzəbəyli: "Zaxarova və mədəniyyət bir-biri ilə tamamilə əks qütbdə dayanıb"

Xatırladaq ki, həmin konfransda iştirak edən "Trend" İnformasiya Agentliyinin xüsusi müxbiri Artyom Sokolov Ermənistanın baş naziri Nikol Paşinyanın Dağlıq Qarabağ münaqişəsinə dair danışıqlarda separatçı rejimin nümayəndələrinin də iştirakının vacibliyinə dair fikrini diqqətə çatdırıb və direktor müavinindən məsələyə münasibət bildirməyi xahiş edib. A. Kojin isə suala cavabında bildirib ki, ümumiyyətlə, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair ATƏT tərəfindən əsası qoyulan müvafiq relslərə uyğun gəlməyən səs-küylü bəyanatlar konstruktiv deyil. Bununla bağlı konkret videogörüntü var və buna rəğmən sözügedən brifinqin Rusiyanın Xarici İşlər Nazirliyinin saytında yerləşdirilmiş mətnində Ermənistanın baş nazirinin mövqeyinin deyil, "Trend"in müxbirinin qeyri-konstruktiv olduğu önə çəkilib. Bununla bağlı iyunun 5-də Azərbaycanın media ictimaiyyəti Zaxarovaya müraciət etsə də, üstündən on gün keçəndən sonra xanım diplomat öz müavininə haqq qazandıran açıqlamalar verib. Bu da Azərbaycan ictimaiyyətində, mediada haqlı hiddət doğurub.

Xanım diplomatın məlum mövqeyi ilə bağlı çoxsaylı fikirlər var. Xarici işlər naziri Sergey Lavrovun ermənipərəst olmasının Zaxarovaya təsirsiz ötüşmədiyi barədə düşüncələr çoxluluq təşkil edir.

**Azərbaycanın Rusiyadakı sabiq səfiri Hikmət Hacızadə Rusiya hökumətinin Azərbaycanı sevmədiyini bildirdi:** "Rus məmurları da hökumətləri kimi Azərbaycanı sevmirlər. Onu özlərinə qardaş dövlət saymırlar. Ögey ana kimi münasibət bəsləyirlər. Bunlar yolverilməz hallardır. Ermənilər bizdən çox sevmələri reallıqdır. Ermənilərin qüsurlarının çox, bizim isə az olmağımızın da burada təsiri yoxdur. Düşünürəm ki, bizi sevməmələri inamsızlıqdan doğur. Zaxarova da onun təzahürüdür. Zaxarovanın yerində başqa bir obyektiv şəxs olsaydı, həmin şəxs dilindən zarafatlar qaçırmaz, cürbəcür axmaq fikirlər deməzdi. Amma məcburdur ki, həmin siyasəti yeritsin. Bunu təbiyəli şəkildə edər. İstənilən şəxs orada anti-Azərbaycan siyasəti yeritməyə məcburdur. Zaxarova güclü diplomat deyil. O, yarıjurnalist kimi bir şəxsdir".

**Politoloq Elçin Mirzəbəyli qeyd etdi ki, Zaxarova rus-sovet diplomatiya məktəbinin tipik nümayəndəsidir:** "Kimsəyə sirr deyil ki, bu məktəb güc, təhdid və aqressiya üzərində qurulub, bütün dünyada hələ orta əsrlərdən qəbul olunmuş diplomatik davranış qaydaları bu məktəbin nümayəndələrinə yad olub. Onun ermənipərəstliyinə gəldikdə isə bu pərəstlik ilk növbədə Rusiyanın MDB məkanına yönəlik siyasətindən və bu siyasəti həyata keçirən xarici işlər naziri Sergey Lavrovun personasından qaynaqlanır. Zaxarova özünü hələ də Rusiya Xarici İşlər Nazirliyinin dəyişməyən atmosferinə uyğun olaraq imperiyanın sözçüsü hesab edir, hər kəslə aşağılayıcı və əzici tonla danışmağa səy göstərir. Rusiyanın imperiya qafalı nümayəndələrini az qala üz cizgilərindən tanıyan biri kimi bu qadınla onun öz üslubuna uyğun danışmağın tərəfdarıyam. Bu baxımdan da Mariya Zaxarovanın az qala, Azərbaycan ictimai rəyinə təsir göstərə bilən biri kimi təqdim edilməsini, onun davranışları ətrafında ciddi müzakirələrin aparılmasını doğru saymıram. Zaxarova kimdirsə odur. Onu bundan sonra dəyişmək, Azərbaycanın dostuna çevirmək bir halda mümkün olacaq ki, sahibi, yaxud sahibləri ölkəmizə qarşı səmimi münasibət bəsləsinlər, yaxud Azərbaycan hansısa məqamda Zaxarovanın, onun sahibinin korporativ maraqları üçün lazım olsun. Təəssüf ki, bu gün Rusiya siyasətçilərinin və diplomatlarının müəyyən bir hissəsində "jirinovskiləşmə" gedib. Bu obraz isə Rusiyanın nüfuzuna təkcə Azərbaycanda deyil, bütün dünyada zərbə vurur. Bu obraz ikrah doğurur, nifrət aşılayır və yaxşı heç nə vəd etmir. Bildiyiniz kimi, Azərbaycan KİV-nin bir qrup təmsilçisi bir müddət öncə baş verən insidentlə bağlı Mariya Zaxarovaya müraciət ünvanlamışdı. Bu müraciət nəinki nəticə vermədi, əksinə, daha aqressiv münasibətə səbəb oldu. Təbii ki, Azərbaycan mediası bu addımla öz mədəniyyətini nümayiş etdirmişdi. Amma görünür, Zaxarova və mədəniyyət bir-biri ilə tamamilə əks qütbdə dayanıblar. Bu səbəbdən də mənə elə gəlir ki, Zaxarova da sovet dövründə olduğu kimi, məşhur bir deyimə "mən rəisəm, sən axmaq" məsəlinə uyğun davranmağa çalışır. Bu səbəbdən də onu rusların öz aralarında bir-birilərini tez-tez göndərdikləri yerə də göndərmək lazımdır. Mən çox təəssüf edirəm ki, Rusiyanın yüksək mədəni və intellektual səviyyəsi olan diplomatları bir kənarda qalıblar və bu ölkənin xarici siyasət idarəsinə Sergey Lavrov rəhbərlik edir. Və bu nazirliyin də sözçüsü qəzəbli arvad ("zlaə baba") Mariya Zaxarovadır".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# Ərdoğandan seçkidən sonra koalisiya mesajı

## Türkiyədə seçki öncəsi kartof-soğan təxribatı; AKP-yə qarşı sabotajı kim edir?

**"Türkiyədə müxalifəti ABŞ birləşdirib". Bu sensasion iddianı Vətən Partiyasının sədri Doğu Perinçək ortaya atıb. Türkiyə mediasının yazdığına görə, Perinçək iddia edib ki, onun və partiyasının müxalifətin "Millət İttifaqı" koalisiyasına daxil olmasına ABŞ razılıq verməyib.**

Perinçək müxalifətin məhz onunla deyil, HDP ilə ittifaqa getməsini Vaşinqtonun sifarişi adlandırıb. O deyib ki, CHP-yə koalisiya qurmaq üçün müraciət etsə də, "yox" cavabı alıb. Bunun əvəzinə HDP ilə ittifaqa gediblər. Eyni zamanda hökumətin ABŞ-la münasibətlərini tənqid edən Perinçək Vaşinqtona etibar etmənin doğru olmadığını bildirib.

**Sitat:** "Amerika ilə əməkdaşlıq edərək Qəndili ağ bayraq qaldırmağa məcbur edə bilərsinizmi? PKK-nı dəstəkləyən ölkə ilə PKK-nı məhv etməyə çalışırsınız. Silahlı bir terror təşkilatı var, arxasında da Amerika, İsrail dayanıb. Buna qarşı İran, İraq, Rusiya ilə birlikdə dayana bilərsiniz. Türkiyə ABŞ və İsraili zərərsizləşdirmək üçün strategiya hazırlayacaq. NATO Türkiyəni düşmən olaraq görür. NATO və Qərb təhlükəsizliyimizi təhdid edir".

Qeyd edək ki, Türkiyədə haqqında birmənalı münasibət olmayan Doğu Perinçək seçkilərdə ciddi elektoral dəstəyi olmasa da, partiyasında yüksək rütbəli keçmiş dövlət məmurları, hərbçilər təmsil olunur və bu səbəbdən də onu bəzi dairələr "dərin siyasətin adamı" adlandırırlar. Hazırkı hökumətə müxalif olsa da, Qərb əleyhdarlığı indiki hökumətlə Perinçəyin ortaq tərəfi hesab oluna bilər. Bu mənada Türkiyənin hökumətyönümlü mediası onun açıqlamalarına geniş yer verib. Ankarada isə seçkilər yaxınlaşdıqca siyasi gərginlik sürətlə yüksəlir. Son olaraq tərəvəz məhsullarının, xüsusən də soğan və kartofun qiymətlərinin yay olmasına rəğmən kəskin bahalaşmasını hakimiyyət rəsmiləri xarici provokasiya adlandırıb. Tərəvəzin qiymətləri isə sürətlə bahalaşır. Ən son olaraq soğanın bir kiloqramının qiyməti 6 liləni ötüb. Türk lirəsinin sürətlə dəyər itirməsi, ardınca tərəvəz qiymətlərinin kəskin bahalaşması hökumət üçün seçkilər öncəsi pis sürprizdir. AKP hökuməti isə bu itkinin yerini uğurlu antiterror əməliyyatları ilə doldurmağa çalışır.



Həftənin əvvəlində Türkiyə ordusunun Menbicdə patrula başlaması xəbərinin ardınca indi də İraqda, xüsusən də Qəndildə əməliyyat xəbərləri gəlməyə başlayıb. Son günlər Türkiyə mediasında Qəndildə PKK düşərgələrinə Türkiyə ordusu xüsusi təyinatlılarının və kəşfiyyat qruplarının əməliyyatları barədə xəbərlər yayılmaqdadır.

İlk olaraq Türkiyə ordusunun Qəndil əməliyyatı çərçivəsində HDP lideri Səlahəddin Dəmirtaşın böyük qardaşı, PKK-lı terrorçu Nurəddin Dəmirtaşı öldürdüyü xəbərləri yayılıb. N. Demirtaşın Türkiyə Silahlı Qüvvələrinin Qəndim əməliyyatı zamanı öldürülməsi iddia olunub.

Ancaq kürd mənbələri bu məlumatı təsdiq etmir. Hazırda həbsdə olan və prezidentliyə rəsmən namizədliyi qeydə alınmış Səlahəddin Dəmirtaş isə qardaşının Ərbildə yaşadığını bildirib. Ancaq maraqlıdır ki, Türkiyə mənbələri eyni dövrdə həmçinin PKK-nın əsas liderlərindən olan Cəmil Bayıkın elə keçirildiyi haqda xəbərlər yayıb. Mətbuatın iddiasına görə, Bayık Qəndildə həyata keçirilən hava zərbələrindən sonra qəfil əməliyyatlar elə keçirilib. Hətta mətbuat Ərdoğanın Diyarbəkr mitinqində çıxışı zamanı PKK-nın liderlərinin həbs olunduğuna işarə edib. Lakin rəsmi mənbələr Bayıkın saxlanıldığını təsdiqləmir. Bütün bunlar daha çox seçkilərə hesablanmış təbliğat fəaliyyətləri hesab olunur. Ancaq istisna deyil ki, seçkilərə az qalmış hökumət Türkiyə seçicilərinə sürprizlər edəcək. Bu sürprizlər Qəndildə, Suriyada və ya ölkə daxilində ola bilər.

Maraqlıdır ki, hökumətin Qəndil, Menbic əməliyyatları kimi xaricdəki hərbi aksiyaları kənardan vurulur. Məsələn, Türkiyə ordusunun Menbicə daxil olması ilə bağlı xəbərlərdən dərhal sonra Vaşinqton Türkiyənin, sadəcə, Menbic rayonunda razılaşdırılmış patrul həyata keçirdiyini, Menbicin mərkəzinə isə daxil olmadığı haqda bəyanat yaydı. İraq baş naziri isə Qəndil əməliyyatı ilə bağlı Ankara ilə hər hansı razılaşma və koordinasiyalı fəaliyyətin olmadığını bəyan edib. Hətta İran da Qəndil əməliyyatına dəstək verməyib. Bütün bunların məqsədli edildiyini deməк olmaz. Ancaq görünən odur ki, Ankaranın tələm-tələsik xarici əməliyyatları tərəfdaşlarını o qədər də razı salmır. Bir şey aydındır ki, hazırkı hakimiyyətə qarşı ənənəvi Qərb müttəfiqləri o qədər də dost münasibəti səgiləmirlər. Hətta hər addımda dost olmadıqlarını nümayiş etdirməyə çalışırlar. Hazırkı hakimiyyət isə bunu bir mənada xarici təzyiq kimi öz xeyrinə istifadə etmək istəyir.

Bu arada Ərdoğanın koalisiya yaratmaqla bağlı mesajı da diqqət çəkir. Türkiyədə keçiriləcək 24 iyun prezident və parlament seçkiləri ilə bağlı sorğuların nəticəsi göstərir ki, hazırkı prezident Rəcəb Tayyip Ərdoğanın hakim Ədalət və İnkişaf Partiyası (AKP) 600 mandatlı parlamentdəki çoxluğunu itirə bilər.

Azvision.az xəbər verir ki, bir sıra investorlar seçkilərdən sonra Türkiyədəki siyasi proseslərin dalana dirənəcəyindən narahatdır. AKP parlamentdəki üstünlüyü qoruyub saxlaya bilməsə, hökumətin formalaşdırılmasında çətinlik yarana bilər.

Lakin Ərdoğan bu məsələdə heç bir problemin olmayacağına əmin edərək, koalisiya hökumətinin anonsunu verib.

"Əgər 300-dən az yer qazansaq, o zaman koalisiya üçün axtarışa çıxacağıq", - deyə Ərdoğan bildirib. Lakin onun fikrincə, AKP-nin parlament çoxluğunu itirmə ehtimalı olduqca azdır.

❑ **Kənan RÖVŞƏNOĞLU,**
**"Yeni Müsavat"**



# Elçibəy iqtidarı rus qoşununu Azərbaycandan pulla çıxarıb - təfsilat

## Prezident Elçibəyin keçmiş mətbuat katibindən və sabiq baş nazirdən sensasiyalı açıqlamalar

**AXC hakimiyyəti zamanında prezident Əbülfəz Elçibəyin mətbuat katibi olmuş Arif Əliyev moderator.az saytına müsahibəsində Azərbaycandan keçmiş SSRİ-dən qalma rus qoşunlarının necə çıxarılması barədə açıqlamalar verib.**

A.Əliyev bildirib ki, Rusiya qoşunları o zaman Azərbaycanı elə-belə tərk etmədi. Rusiya bunun müqabilində istədiyi məbləği də aldı: "Qoşunların çıxarılması təbii ki, bu, güclü diplomatik təzyiqlər idi. Bu, tək Azərbaycanın yox, Qərbin vasitəsilə də həyata keçirilirdi. Bu, həm də şəxsi əlaqələrin nəticəsi idi. Rusiya qoşunları Azərbaycandan çıxanda da böyük texnikaya malik idilər. Söhbət nəzərdə tutulan maliyyədən gedir. Onlar bunu Azərbaycana bağışlamayacaqdı ki! Həmin maliyyəni aldılar. Onlar Azərbaycandan çıxanda onlarda belə əminlik yarandı ki, 2 həftədən sonra yenidən Azərbaycana qayıdacaqlar. Və bütün qalan silahların hamısını Azərbaycanda qiyama hazırlaşan Surət Hüseynovun ordusuna vermişdilər. Təkcə 55 "Qrad" verilmişdi. Bu "Qrad" məgər Qarabağda Ermənistana çevrildi? Xeyr. Buna görə də Rusiya qoşunları Azərbaycandan çıxanda əmin idi ki, Surət Hüseynov hakimiyyətə gələcək və onlar qoşunla yenidən Azərbaycana qayıdacaq. Heydər Əliyev bu planları pozdu və Elçibəyin də Heydər Əliyevi Bakıya dəvət etməsi bu planların pozulması demək idi. Azərbaycanın müstəqilliyi başlıca məsələ idi".

A.Əliyev deyib ki, 4 iyun qiyamı Elçibəy hökumətinə Rusiya qoşunlarının Azərbaycandan çıxarılmasına, neft müqavilələrin imzalanmasında göstərdiyi inada görə cəza idi.



Pənah Hüseyn



Arif Əliyev

**Pənah Hüseyn:** "Bu məsələni baş nazirin müavini Rəsul Quliyevə həvalə elədim. Şerbakla danışıqları o apardı və 5 milyon dollar endirildi 600 min dollara. O məbləğ ödənildi və silahlar alındı"

**Arif Əliyevin dediklərindən belə məlum olur ki, Elçibəy hakimiyyəti rus qoşunlarının buradakı silahlarının alınmasında hansısa məbləğdə vəsait verib. Deyilənlərlə bağlı Ə.Elçibəy iqtidarının dövlət katibi və baş naziri olmuş AXP sədri Pənah Hüseyn "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, rus qoşunlarının Azərbaycandan çıxarılması iki formada və iki fərqli məsələni əhatə edir:** "Birincisi, SSRİ dövründən qalmış silahlı qüvvələrin Azərbaycan ərazisindən çıxarılması məsələsidir. İkincisi Rusiya diviziyasının çıxarılmasıdır. Azərbaycanda üç müxtəlif təyinatlı qoşun hissəsi olub. Bunlardan biri 4-cü ordudur və Zaqafqaziya hərbi dairəsinə tabe olub. Azərbaycanda üç diviziya var idi. Onlar Lənkəranda, Bakıda və Gəncədə yerləşirdi. Bundan əlavə, birbaşa Moskvaya da tabe olan, Zaqafqaziya hərbi dairəsinə daxil olmayan 104-cü diviziya da Azərbaycanda var idi. Bu diviziyaya Şerbak komandirlik edirdi. Bir də baş qərargaha tabe olsa da idarəçilikdə əlahiddə sayılan Baş Kəşfiyyat İdarəsinin 22-ci briqadası yerləşirdi. 4-cü ordu və Baş Kəşfiyyat İdarəsinin 22-ci briqadası Azərbaycandan 1992-ci il yayın sonunda çıxarıldı. Onu da deyim ki, bu məsələnin hüquqi əsası hələ SSRİ dövründə qoyulmuşdu. O dövrdə silahların məhdudlaşdırılması haqqında "Paris müqaviləsi" var idi. Hələ SSRİ dağılmamış SSRİ-nin bir sıra regionlarından, o cümlədən Zaqafqaziyadan silahlı qüvvələrin ixtisarı məsələsi gündəmdəydi. SSRİ dağıldıqdan sonra həmin hərbi hissələrin əmlakı, silahları, Xəzər donanmasının Bakıda olan gəmilərinin Azərbaycan qanunvericiliyinə və dövlət müstəqilliyi aktına görə Azərbaycan Respublikasının mülkiyyətinə keçməsi elan olundu. Sonra isə bu barədə prezident fərmanı verildi və bunların təhvil-təslim prosesinə başlandı. Bu prosesin real həyata keçirilməsi ciddi maneələrlə qarşılaşmışdı. Keçmiş sovet silahlı qüvvələri o dövrdə MDB silahlı qüvvələri adı altında qeyd olunmuşdu və faktiki olaraq Rusiyaya tabe idi. 1992-ci ilin fevralında da Boris Yeltsinin xüsusi fərmanı oldu. Fərman keçmiş SSRİ silahlı qüvvələrinin müvəqqəti olaraq Rusiyanın tabeçiliyinə keçirilməsini nəzərdə tuturdu.

1992-ci il 15 mayda Daşkənddə keçmiş SSRİ respublikalarından qoşunların çıxarılması, nə qədər silahın həmin respublikalarda qalması haqqında hər bir respublika ilə müqavilələr imzalandı. Azərbaycan tərəfindən bu müqaviləni o dövrün müdafiə naziri Rəhim Qazıyev imzalamışdı. Bu müqavilələr əsasında da Azərbaycana təhvil verilməli olan silahlar müəyyənləşdirildi. Hərbi hissələrin isə 1992-ci ildə çıxarılması nəzərdə tutulmuşdu. Əbülfəz Elçibəy prezident seçildikdən sonra onun təkidi ilə keçmiş SSRİ-nin Azərbaycandakı bütün silahlı qüvvələri çıxarıldı. 104-cü tank diviziyası isə qeyd olunan müqaviləyə görə SSRİ-yə yox, Rusiyaya aid idi. Ona görə 104-cü diviziyanın Azərbaycandan çıxarılması Rusiya qoşunlarının ölkəmizdən çıxarılması deməkdir. Bu hadisə isə 1993-cü ilin mayında baş verdi".

**P.Hüseyn xatırlatdı ki, Rusiya 104-cü diviziyaya MDB-nin sülhməramlı qüvvələri statusu verilməsinə və bu adla Azərbaycanda saxlanmasına çalışırdı. Lakin prezident Elçibəy Rusiyanın bütün təzyiqlərinə baxmayaraq 104-cü diviziyanın çıxarılmasında təkid elədi:** "Həmin diviziya, yəni Rusiya qoşunları 1993-cü il mayın 25-də Azərbaycan ərazisindən çıxarıldı. Bu, keçmiş SSRİ məkanında ilk belə hal idi. Ona görə də bu hadisə təkcə Azərbaycan miqyası ilə məhdudlaşmır, bütün keçmiş sovet məkanına təsir göstərən hadisə idi.

Daşkənddə imzalanan müqavilə əsasında isə keçmiş SSRİ hərbi qüvvələrinin silahlarının təhvil-təslimi, çıxması qrafiki həyata keçirildi.

104-cü diviziyanın çıxarılması zamanı əksər silahları Rusiyaya daşınmışdı. Çünki onlar Rusiyanın əmlakı hesab olunurdu. Azərbaycan da bununla razılaşmağa məcbur idi. Amma hələ daşınmamış bir sıra silahların, desant bölüyünün paraşütlərinin pul ödənilərək alınması istiqamətində danışıqlar aparılmışdı. Danışıqlarda 5 milyon dollar ödənilməsi məsələsi müzakirə edilmişdi. Müdafiə naziri Dadaş Rzayev bu məbləğin ruslara ödənilməsini tövsiyə eləmişdi. Əsaslandırılırdı ki, əslində bizə qalacaq silahların dəyəri bundan qat-qat artıqdır. O dövrdə mən artıq dövlət katibi yox, baş nazir idim. 5 milyon dolların ayrılması bizə çox göründü. Ona görə də bu məsələni baş nazirin müavini Rəsul Quliyevə həvalə elədim. Şerbakla danışıqları o apardı və 5 milyon dollar endirildi 600 min dollara. 600 min dollar ödənildi və silahlar alındı. Hər halda, Arif Əliyev bu məsələni nəzərdə tutaraq həmin açıqlamanı verib".

**P.Hüseyn onu da qeyd etdi ki, Surət Hüseynova Şerbak tərəfindən silahların verildiyi barədə o dövrdə məlumatlar olub:** "Surətə 2 min "Kalaşnikov" avtomatı təhvil verilmişdi. Ola bilsin Surət Hüseynov da həmin silahlara pul ödəmişdi. Lakin Surətə "Qrad" qurğuları verilməmişdi. "Qrad" qurğuları 709 saylı hərbi hissənin özünün idi. Surət Hüseynovun ruslardan əldə etdiyi silahlar 4 iyun qiyamı zamanı ona qoşulan adamlara paylanmışdı".

**P.Hüseyn bildirdi ki, Rusiyanın Surət Hüseynovun əli ilə Azərbaycanda Elçibəy hakimiyyətini devirmək planı 104-cü diviziya Azərbaycandan çıxarılmazdan öncə mövcud olub:** "22-ci rus briqadasının mütəxəssislərinin isə 4 iyun qiyamının hazırlanmasında iştirakı haqda məlumatlar var idi. Azərbaycanda SSRİ dövründən qalma rus qoşunları ölkəmizin müstəqilliyi və istənilən hakimiyyət üçün bir təhlükə idi. Əbülfəz Elçibəy də buna görə həmin qoşunların sürətlə çıxarılmasında təkid etdi və buna nail olundu".

❑ **Etìbar SEYİDAĞA, "Yenì Müsavat"**

# İranla sərhəddə atışma - DSX rəisi Göytəpəyə getdi

## Bir əsgər yaralanıb; dövlət sərhədini pozmağa müvəffəq ola bilməyən sərhəd pozucuları geri qaçıblar

**Dövlət Sərhəd Xidməti Azərbaycan-İran sərhədindəki atışma ilə bağlı rəsmi məlumat yayıb.**

Dövlət Sərhəd Xidmətindən verilən məlumata görə, 2018-ci ilin 21 iyun tarixində saat 02:45 radələrində DSX-nin sərhəd qoşunlarının Göytəpə sərhəd dəstəsinin Cəlilabad rayonunun Bayxanlı kəndinin yaxınlığındakı sərhəd zastavasının xidməti ərazisində dövlət sərhədinin pozulmasına cəhd edilib.

Sərhəd naryadı tərəfindən İran İslam Respublikasından Azərbaycan Respublikası istiqamətində silahlı şəxslərin hərəkəti aşkar olunub və qarşısı alınıb.





Azərbaycan Respublikasının dövlət sərhədinin mühafizəsində olan sərhəd naryadının qanuni tələbinə və xəbərdarlıq atəşinə tabe olmayan sərhəd pozucuları tərəfindən sərhəd naryadına qarşı silah tətbiq edilib. Baş vermiş hadisə zamanı sərhəd naryadının başçısı Balakən rayonundan həqiqi hərbi xidmətə çağırılmış əsgər Kurupov Ramazan Məmməd oğlu döş qəfəsi, əl və ayaq nahiyələrindən güllə yaraları alıb. Dövlət sərhədini pozmağa müvəffəq ola bilməyən sərhəd pozucuları geri qaçıblar.

Əsgər R.Kurupov digər sərhəd naryadı tərəfindən ilkin tibbi yardım göstərildikdən sonra təcili olaraq Cəlilabad rayon mərkəzi xəstəxanasına təxliyə edilib. Xəstəxananın və DSX hərbi hospitalının hadisə ilə əlaqədar Cəlilabad rayonuna ezam olunmuş həkimləri tərəfindən əsgər təcili əməliyyat olunub.

Hadisədən dərhal sonra Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev və digər rəhbər vəzifəli şəxslər əraziyə gəlib, hadisə yerinə baxış keçirib, əməliyyat-axtarış tədbirlərinin davam etdirilməsinə dair zəruri tapşırıqlar verib.

Dövlət Sərhəd Xidmətinin rəhbər heyəti, Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı, yerli hüquq-mühafizə orqanlarının rəhbərləri Cəlilabad rayon mərkəzi xəstəxanasında əsgər R.Kurupova baş çəkib, səhhətinin vəziyyəti ilə maraqlanıblar.

Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev sərhədçi əsgəri təcili əməliyyat edərək onun həyatını xilas etmiş tibb heyətinə, həmçinin əsgərin əməliyyatı üçün qan vermiş DİN-in Cəlilabad rayon şöbəsinin əməkdaşlarına dərin minnətdarlığını bildirib.

Dövlət Sərhəd Xidməti rəisinin əmri ilə əsgər Kurupov Ramazan Məmməd oğlu xidməti vəzifələrinin icrasında göstərdiyi şücaətə görə "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı ilə təltif olunub.

Hadisə ilə əlaqədar zəruri tədbirlər həyata keçirilir. Fakt üzrə Hərbi Prokurorluq tərəfindən cinayət işi başlanılıb.

# "Məğlubedilməz" erməni ordusu ifşa olur - faktlar

**Ermənistanda hay-küylü həbslər davam edir. Son olaraq "Yerkrapa" qanunsuz yarımhərbi birləşmənin komandiri, azərbaycanlılara qarşı da cinayətlər törətmiş general Manvel Qriqoryan və yaxınları dəmir barmaqlıqlar arxasına salınıb. Onlar böyük korrupsiya faktlarına, qanunsuz silah-sursat saxlamaq və ordu üçün ayrılmış humanitar yardımı mənimsəməkdə ittiham olunurlar.**




# Xocalı canilərinə İrəvanda həbs tələbi - Bakı üçün unikal fürsət

## Erməni əsgər anaları üsyana qalxdı; "Serj Sərkisyan, Seyran Ohanyan da tutulsun!.."; işğalçı ölkədə terror siyasi rəqabətdə əsas mübarizə üsullarından birinə çevrilir; Nikol Paşinyan aradan götürülə bilərmi?..

Beləcə, uzun müddət ermənilərin kumir saydığı, ətəyində "ibadət elədiyi" M. Qriqoryan ifşa olunub. Aydındır ki, onların digər kumir və qəhrəmanları da eyni gündədir, yalançı və dələduzdur. Gec-tez onlar da ifşa olunacaq, qanuni və ilahi cəzalarını alacaqlar. Yaxud bunu Azərbaycan əsgəri edəcək.

*****

Ancaq məsələ ondadır ki, hələ bir dəfə belə, hakimiyyətin seçki yolu ilə dəyişmədiyi Ermənistan adlı kvazi-dövlətin mövcud olduğu 27 ilə ötəri nəzər salsaq, belə həbslərin xalqa elə bir isti-soyuqluğunun olmayacağı bəlli olar. Çünki baş verənlər hər şeydən öncə hakimiyyətə gəlmiş Paşinyan və komandasının öz mövqeyini möhkəmlətmək niyyəti güdür və gəlirli sahələrin təzədən bölüşdürülməsi uğrunda növbəti amansız mübarizədən savayı bir şey deyil.

Aydındır ki, devrilən eks-prezident Serj Sərkisyan başda olmaqla, yeni müxalifətin əlində böyük çirkli paralar qalıb və bu paralar Paşinyan iqtidarı üçün böyük təhlükə deməkdir - o cümlədən qarşıdakı parlament seçkilərində. Ermənistanda arzuolunmaz siyasi fiqurlara qarşı zaman-zaman törədilən terror aktlarını yada salsaq (1999, oktyabr), təzə hakimiyyətin əndişələnməsi üçün əsaslar bir az da güclü görünər.

Hər necə olmasa, bu da faktdır ki, işğalçı ölkədə siyasi rəqabət üçün bütün üsullar, o cümlədən terror və sui-qəsdlər həmişə məqbul sayılıb. Təsadüfi deyil ki, artıq Nikol Paşinyanın özünə qarşı sui-qəsd cəhdi olub. Və bu, heç də sonuncu olmaya bilər. Onu da ciddiyə alsaq ki, Moskva da Nikol Paşinyandan məmnun deyil, o halda indiki baş nazirin durumuna qibtə eləməyə dəymir.

Bu və digər səbəblərdən yeni hakimiyyət öz ayağının altını möhkəmlətmək üçün tələsir. Hətta bu məqsədlə S.Sərkisyan rejiminə qarşı qanunsuz üsullarla mübarizə aparmış terrorçu Jirayr Səfilyan kimiləri həbsdən azad edir. Elə ki, öz yerini möhkəmlətdi, o da yüzdə yüz xalqı unudub, sələflərinin ənənəvi yolunu - varlanmaq yolunu tutacaq...

*****

Son həbslər həm də işğalçı ordunun "güclü və məğlubedilməz" mifini bir daha darmadağın edib. Verilən rəsmi açıqlamalardan məlum olur ki, erməni ordusu - korrupsiya və talançılıq, dedovşina problemlərindən əziyyət çəkən başıpozuq bir ordudur. Yeri gəlmişkən, 2016-cı ilin 4 günlük aprel uğursuzluğundan sonra orduda ciddi korrupsiya və mənimsəmə faktları çılpaqlığı ilə üzə çıxmış, Sərkisyan bir neçə generalı həbsə atmalı olmuşdu. Seyran Ohanyan isə müdafiə naziri postundan istefa vermişdi. Təbii ki, bu - çoxsaylı faktların yalnız bir qismi idi.

İndi isə daha acınacaqlı faktlar ortaya çıxıb və əhali şoka girib. İrəvanda son qalmaqalı həbslərlə bağlı övladları öldürülmüş əsgər analarının etirazı bunu bir daha sübut edir.

"Biz illərdir ordudakı talançılıq haqda deyirdik. Ancaq bizim sözümüzə heç bir əhəmiyyət verilmədi. Mənim oğlumu məhz ona görə öldürdülər ki, o, hərbi hissədən yanacağın necə oğurlanıb satıldığını öz gözü ilə görmüşdü". "Yeni Müsavat" xəbər verir ki, bunu 1 in.am erməni portalına müsahibəsində dinc dövrdə öldürülən əsgər Valeri Muradyanın anası Nana Muradyan general M.Qriqoryanın ifşası ilə bağlı danışarkən deyib.

Onun sözlərinə görə, təkcə Qriqoryan yox, ovaxtkı Baş Qərargah rəisi Movses Akopyan (Xankəndindəki 336-cı alayın komandir müavini olub - "YM"), keçmiş müdafiə naziri Seyran Ohanyan və Serj Sərkisyan da həbs olunmalıdır (hər üçü Xocalı hərbi caniləridir - "YM"). "Çünki onların rüsxəti olmadan orduda talançılıq bunca böyük miqyas ala bilməzdi" - Muradyan əlavə edib.

**"8 il Müdafiə Nazirliyinin başında olmuş bir şəxsin (Seyran Ohanyan - "YM") öz idarəsindəki korrupsiya sxemindən bixəbər olmasına inanmaq mümkün deyil. Üstəlik, Manvel Qriqoryan 8 il onun müavini olub və bu adam haqda daima söz-söhbətlər gəzib".**

**"Yeni Müsavat"ın məlumatına görə, bu sözlər isə armenianreport.com nəşrindəki dünənki məqalədəndir. Məqalədə daha sonra deyilir:** "Hamıya bəlli idi ki, Seyran Ohanyan öz tabeçiliyindəkilərin və Manvel Qriqoryan kimi nazirliyə bağlı olanların günahlarına göz yumurdu. Məhz Ohanyanın dönəmində müdafiə sistemində korrupsiya çiçəklənib, erməni polkovnikləri və generalları Ermənistanın ən varlı adamları kastasına daxil olublar. Doğrudanmı Ohanyan bilmirdi ki, tabeçiliyindəkilər nəyin hesabına bu qədər varlanıb və Manvel Qriqoryan əsgər yeməklərini mənimsəyir? Əlbəttə ki, bilirdi. Axı Müdafiə Nazirliyindəki korrupsiya piramidasının başında özü dururdu və vaxtlı-vaxtında da korrupsiya sxemlərindən faizlər alırdı. Həmçinin İrəvanda "Yerkrapa"nın reketçi hərəkətlərinə fikir verilmirdi, nədən ki, Sərkisyan rejimi öz rəqibləri ilə haqq-hesab çürütmək və xalqı qorxu altında saxlamaq üçün belə qeyri-formal, hərbləşdirilmiş qurumlara kəskin ehtiyac duyurdu..."

*****

Beləcə, Ermənistanın keçmiş siyasi və hərbi rəhbərlərinin başı üzərində qara buludlar sıxlaşmaqdadır. Bu üzdən Azərbaycan Ermənistandakı qalmaqallı həbsləri diqqətlə izləməlidir. Xocalı hərbi canilərinin (Akopyan, Ohanyan, Sərkisyan, Köçəryan) tutuqlanacağı təqdirdə onların Beynəlxalq Tribunala verilməsi üçün indidən effektli və real hərəkət planı hazırlanarsa, daha yaxşı olar.

**❑ Siyasət şöbəsi, "Yeni Müsavat"**

# Yeni hökumətin iki ayı - kim necə qiymətləndirir?



## Zahid Oruc: "Əslində biz bunu ümumxalq hökuməti kimi dəyərləndiririk"

**Azərbaycanda yeni hökumətin formalaşmasının artıq iki ayı tamam oldu. Məlum olduğu kimi, bu il aprelin 21-də prezident İlham Əliyev Novruz Məmmədovun baş nazir statusunda rəhbərlik edəcəyi Nazirlər Kabinetinin yeni tərkibini təsdiq etmişdi.**

İki ay ərzində baş nazir bir neçə islahat həyata keçirdi, o cümlədən bəzi struktur islahatları apardı. Digər qurumlarda da yenilik prosesləri davam etdirilir. Beləliklə, yeni baş nazir Novruz Məmmədov sabiq həmkarı Artur Rasi-zadədən fərqli olaraq fəallıq nümayiş etdirir. Hətta 71 yaşlı baş nazir vaxtaşırı öz twitter səhifəsində xalqı bayram münasibətilə təbrik edir, ölkənin siyasi həyatında baş verən proseslərə aktiv reaksiya verir, şərhlər yazır.

Bununla belə, qeyd etmək lazımdır ki, yeni hökumət iki ay müddətində mətbuat konfransı keçirməyib. Suallar ortaya çıxır ki, hər hansı bir məsələ ilə bağlı danışmaq, mətbuat konfransı keçirmək üçün iki ay az müddətdirmi? Ümumiyyətlə, yeni hökuməti kim necə qiymətləndirir?

**Deputat Zahid Oruc mövzu ilə bağlı "Yeni Müsavat"a danışıb:** "Hesab edirəm ki, dəyişikliklər, ölkə rəhbərinin cəmiyyətdən aldığı mesajların, apardığı görüşlərin və tədbirlərin gələcək dövrdə davam etdirilməsi istəyinin nəticəsidir. Əslində biz bunu ümumxalq hökuməti kimi dəyərləndiririk. Onların içərisində innovativ proqramlara açıq olan, cəmiyyətlə birbaşa ünsiyyət imkanları yaradan, formalizmdən uzaq, menecerlik tələblərini ödəyə biləcək insanlar, yeni təvəkkül daşıyıcılardır. Digər tərəfdən, hətta öz vəzifəsini davam edən hər kəs dövlət rəhbəri tərəfindən qarşıdakı 7 il dövrü üçün daha perspektivli proqramların seçildiyini nəzərə alaraq, ümumi meyarlar çərçivəsində işləyəcək. Yəni mən bunu belə qəbul edirəm. Beləliklə, hər kəs dövrün tələbləri çərçivəsində fəaliyyətini qurmaq hissi keçirir.

Qurumlar, nazirliklər bu müddət ərzində mətbuat konfransı, seminarlar və bu tip tədbirlər keçirməli idimi? Düşünürəm ki, məsələyə subyektiv yanaşmaq lazımdır. Görünən budur ki, adekvatlıq, fəallıq var, əvvəlki dövrdə yol verilən səhvlərdən yayınmaq üçün yeni mexanizmlərin yaradılması ideyası var.

Son vaxtlar baş verən hadisələrdən müşahidə edirik ki, Kənd Təsərrüfatı Nazirliyində hansısa xətalara yol verilib. Bunun baş verməməsi üçün müəyyən tədbirlər görmək, rəqabət mühitini bərqərar etmək lazımdır.

Düşünürəm ki, bir il yarım zaman gərəkdir ki, qeyd etdiyimiz sahələr üzrə fundamental dəyişiklikləri görə biləkk. Çünki iqtisadiyyat zaman tələb edir".

**Milli Məclisin İqtisadi siyasət komitəsinin üzvü, iqtisadi ekspert Vahid Əhmədov sualımızı bu cür cavablandırdı:**

"Məsələyə qiymət vermək üçün iki ay çox az müddətdir. Çünki bu müddətdə hökumət üzvləri yeni işlə tanış olur, müəyyən dəyişikliklər aparılır və sairə. Yalnız ilin yekununda müəyyən rəylər verilə bilər. Lakin diqqət edəndə görürük ki, yeni hökumət formalaşdıqdan bir sıra islahatlara start verildi, müəyyən işlər aparılır, hansısa problemlərin həllinə çalışılır. Eyni zamanda kadr islahatı aparılır. Doğrudur, kadr islahatı şəxsən məni çox da qane etmir. Çünki kadr islahatı aparmazdan əvvəl kadrları qiymətləndirmək, tanış olmaq, mövqeyini, iş sistemini bilmək lazımdır. Lakin indi müşahidə etdiyimiz kimi, köhnə kadrlar gedir, əvəzinə yeniləri gəlir və bu adi haldır. Bir çox aparılan islahatları müsbət qarşılayıram. Məsələn, "Qaçqınkom"da aparılan dəyişikliklər, Fuad Muradovun xaricdəki görüşləri, Miqrasiya Xidmətindəki islahatlar və sairə. Doğrudur, Kənd Təsərrüfatı Nazirliyində pambıq işləri ilə əlaqədar müəyyən problemlər baş verdi, lakin ümumilikdə nazirin perspektiv planları onu göstərir ki, işlər gedir".

**❑ Xalidə GƏRAY, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 133 (7022) 22 iyun 2018



# Avtoritarizmin sınırları

Zamin HACI
zaminhaci@gmail.com

"İran qəribə bir təzad və dərəbəylik ölkəsi olduğundan qanun-qaidəsi yox, zülm və ədaləti bəgənilməz bir dövlət olduğundan, nədən isə ermənilər İranda kəmali-istirahət və azadlıqla yaşamışlar. İran istibdadından bunlar zərrəcə bir zərər görməmiş kəmali-rəfahətlə dolanmışlar".

*(Məhəmməd Əmin Rəsulzadə, "Tərəqqi" qəzeti, 1909-cu il)*

**İranla sərhədimizdə bir qrup şəxs Cəlilabad sərhəd dəstəsinin əsgərini güllələyərək aradan çıxıb. Dünən Sərhəd Qoşunlarının komandiri Elçin Quliyev hospitalda əsgərə baş çəkərək medal veribdir. Məni bir sual düşündürür, çünki o istiqamətdə silahlı sərhəd pozucularının cinayətləri birinci hadisə deyildir, dəfələrlə olmuşdur: niyə buna görə qonşumuza cupbulu da olsa notadan-zaddan verilmir? Bəyəm ora yiyəsiz ölkədir ki, hərə əlinə bir silah alıb bizə cumsun? Şübhəsiz, həmin silahlıları "bir öyrədən var"dır. Narkotikin ən böyük partiyaları da oradan gəlir, sərhədimizi ermənilərdən sonra ən çox pozanlar da İranla sərhəd istiqamətindəndir, di gəl quru xəbərdarlıq da yoxdur. Yoxsa dilim-ağzım, qələmim-klaviaturam qurusun, biz İrandan qorxuruq? İnanmıram. Bizim hökumətin İranla dostluq-qardaşlıq əlaqələri kefin istəyən şəkildədir. Biz, ümumiyyətlə, heç kimin toyuğuna kiş demirik, balanslı hin.., üzr istəyirəm, XİN siyasəti yürüdürük. İsraillə də qardaşıq, İranla da. Rusları da sevirik, ukraynalıları da. Türkiyə də dostumuzdur, Bərzani də. Bəs ara yerdə yazıq balakənli əsgərin günahı nə idi ki, Cəlilabad tərəfdə axmağın biri gəlib gülləni onun qarnına doldurur?**

Dərdi yazmışam, dərmanını da yazmalıyam. Məncə günah elə o əsgərin özündədir. Lazım olmayan vaxt lazım olmayan yerdə göründüyü üçün hazırda yarasının üstündən "Hərbi xidmətdə fərqlənməyə görə 33-cü dərəcəli medal" basaraq qoruduğu ana torpağa horizontal şəkildə hospitalda uzanmışdır. Şübhəsiz, hər yaranın öz medal məlhəmi vardır. Ancaq yenə də... Bəlkə iranlı sərhəd pozucuları əsgərimizi qətlə yetirəydi? Bu zonada atəşkəsə haçan əməl olunacaqdır? Eyni zamanda yuxarıda yazdığım kimi, əsgər də öz yerini, həddini və sərhədini bilsin. Balakənlinin Cəlilabadda nə işi var?

Yerində olmaq, ümumiyyətlə, önəmli özəllikdir. Misal üçün, hazırda mətbuat nümayəndələri Bakı Şəhər İcra Hakimiyyətinin başçılığına adam axtarırlar, tapmırlar. İdarə neçə aydır başsız qalıbdır. Doğrudur, deyirlər Hacıbala müəllimin ruhu kabus kimi idarədə dolaşır, səhərlər Nazirlər Kabinetində *(indi Hacıbala müəllim oranı sevməklə məşğuldur, neçə il sevəcək Allah bilir)*, axşamlar Bakı ŞİH-də olurmuş. Lakin yarımçıq hamiləlik kimi, yarımçıq ŞİH başçılığı da mümkün deyildir. Bəs o zaman niyə idarəyə rəhbər tapılmır?

Düşündürücü problem olsa da, biz fikirləşmədən bunun səbəbini yaza bilərik. Azərbaycanda avtoritarizm, bir nəfərin hakimiyyəti hökm sürdüyü üçün hər hansı idarəyə, nazirliyə, qanunverici orqana *(bizdə nazir kürsüləri, deputatxana kresloları da uzun zaman boş qalır, bu isə ölkənin funksionallığına qətiyyən təsir eləmir)* kadrların təyinatı heç bir əhəmiyyət daşımır. "Seçilməsi" sözünü yazmıram, çünki bu fantastika janrına aiddir, bizdə təsəvvürü belə ayıbdır. Bir nəfər hamının yerinə çalışır. Bir nəfər gələcəyimizi, indimizi, keçmişimizi müəyyən edir. Bir nəfər olmasa batarıq, axşam düşməmiş yatarıq. (misal üçün, pambıqlıqda). Bir nəfərdir xilasımız, ona gedir bütün gilasımız. Dua eləyək bir nəfərə, bizi atıb getməsin səfərə! Allah bizim hamımızın ömrünü kəsib, bir nəfərin ömrünə calasın, ilahi, amin! Bəs mən niyə bir nəfərin kim olduğunu yazmıram? Çünki onu da gərək mənim yerimə bir nəfər özü yazsın. İndilik isə məsləhət bilmir yazsın. Vəssalam, şüttəmam.

İstefada olan bir polis generalı təzəlikcə jurnalisti söyüb biabır eləmişdi. İndi deyirlər generalın... qardaşı jurnalistə zəng vurub üzr istəyibdir. Bu da milli dövlətçiliyimizdən irəli gələn praktikadır. Biri söyür, o biri üzr istəyir. Söyən özü üzr istəsə, sabitlik pozular. Hər şeyin öz yeri var.

Sonda qeyd edim ki, biz xalq olaraq özümüzün "Tək əldən səs çıxmaz" ata sözümüzü təkzib eləmiş xalqıq. Çırtıq çalmaqla. Elə qəşəng də səs çıxır...



# AŞ PA-nın yay sessiyası öncəsi Bakıya təzyiqlər başladı-Aİ bəyanat yaydı

## Avropa İttifaqı yenidən siyasi məhbus məsələsini qaldırıb; **Fəzail Ağamalı:** "Avropa İttifaqının Azərbaycana qarşı münasibəti heç bir halda qəbul edilən deyil"

**25-29 iyun tarixlərində keçiriləcək AŞ PA-nın yay sessiyası öncəsi Azərbaycana qarşı növbəti təzyiqlər dalğası start götürüb. Avropa İttifaqı Bakını siyasi məhbusları təcili azad etməyə çağırır.**

İttifaqın bəyanatında deyilir ki, insan haqları müdafiəçilərinin Vəkillər Kollegiyasından çıxarılması ciddi narahatlıq doğurur. Aİ Xarici İşlər və Təhlükəsizlik Komissarlığının sözçüsü iyunun 18-də bildirib ki, İttifaq Azərbaycandakı insan haqlarının ciddi pozuntularından xəbərdardır və bu məsələni israrlı olaraq bütün səviyyələrdə qaldırır. Sözçü onu qeyd edib ki, Azərbaycanın 2018-ci ilin mayından bəri davranışı təməl insan haqlarına ehtiram edilməsi sahəsində ciddi suallar doğurur və Azərbaycan-Avropa İttifaqı münasibətlərinin müsbət inkişafı ilə ziddiyyət təşkil edir.

Bəyanatda deyilir ki, bu davranışlar dedikdə ilk növbədə müxalifət partiya üzvlərinin saxlanmaları, siyasi fəallara qarşı pis rəftar edilməsi və jurnalistlər də daxil, onların bir neçəsinə qarşı cinayət işlərinin qaldırılması nəzərdə tutulur. Birliyin bəyanatında o da vurğulanır ki, insan haqları müdafiəçilərinin Vəkillər Kollegiyasından çıxarılması bu mənada daha ciddi narahatlıq doğurur.

İttifaq REAL sədri İlqar Məmmədov və jurnalist Əfqan Muxtarlı ilə bağlı işlərin gedişatını diqqətlə izlədiyini qeyd edib. Sənəddə bildirilir ki, fundamental hüquqlardan istifadəyə görə məhbus edilmiş şəxslərin məsələsinə təcili olaraq yenidən baxılmalıdır. Sözçü qeyd edib ki, bu şəxslər Azərbaycanın beynəlxalq öhdəliklərinə uyğun olaraq azad olunmalıdırlar.

Bəyanatda deyilir ki, Avropa İttifaqı insan haqları da daxil Azərbaycanla bütün aspektlərdə işləməyə hazırdır.

Bu da xatırladılır ki, sözügedən məsələlər Azərbaycanla hərtərəfli münasibətlərə dair yeni sazişin, habelə Azərbaycanın Aİ ilə partnyorluq münasibətləri çərçivəsində müzakirə olunmaqda davam edir.

Qeyd edək ki, bir qədər əvvəl Ermənistan XİN-in mətbuat katibi Tiqran Balayan Avropa Şurasının baş katibi Torbyorn Yaqlandın rəsmi Bakını AŞ-də üzvlüyünün dayandırılması prosesinə təşəbbüs göstərdiyini bildirib. Doğrudur, Avropa Şurası baş katibinin mətbuat katibi Daniil Holdqen bu xəbəri təkzib edib. Lakin Yaqlandın ölkəmizə qarşı edilən təzyiqlərdə baş rolda yer alan şəxslərdən biri olduğunu düşünsək, bunu birmənalı şəkildə inkar etmək olmur.

Ekspertlər ötən ayın ortalarında AŞ PA-nın Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidova sanksiya tətbiq etməsinin davamı kimi bu yay sessiyasında ölkəmizə qarşı bir sıra sərt qərarların qəbul ediləbiləcəyini ehtimal edirlər. Xüsusilə İlqar Məmmədovla bağlı qəbul edilən qərarların Azərbaycanda icra edilməməsi rəsmi Bakını sessiyada ciddi təzyiqlərlə üz-üzə qoya bilər.

**Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı Avropada fəaliyyət göstərən müxtəlif qurumların təzyiqlərinin səngimək bilmədiyini söylədi:** "Təəssüflər olsun ki, bu ənənə davam edir. Avropa Şurasının ardınca AŞ PA-nın, eləcə də Avropa İttifaqının Azərbaycana qarşı münasibəti heç bir halda qəbul edilən deyil. Təəssüf edirəm ki, Cinayət Məcəlləsinin ayrı-ayrı maddələri üzrə məhkum olunan şəxslərdən siyasi məhbus adı altında Azərbaycana qarşı istifadə edirlər. Birmənalı olaraq Azərbaycan hüquqi dövlət kimi qanunun aliliyinə hörmət edir və bu aliliyi özünün fəaliyyətində əsas yerlərdən birinə qoyur. Dəfələrlə dediyim kimi, kimsə siyasi partiyanın, QHT-nin çətiri altında yaxud jurnalist və digər sahələrin təmsilçisi kimi cinayətə yol verirsə, o, Azərbaycan qanunları çərçivəsində öz cəzasını almalıdır. Burada istisnalar qətiyyən ola bilməz. Heç kimə imkan verilə bilməz ki, müxtəlif yollarla qanunlarımızı pozsun, cəmiyyətdə ciddi problemlər yaratsın. Buna heç bir halda qətiyyən yol verməmək olmaz. Azərbaycan hüquqi dövlət kimi müvafiq addımlarını atır, bundan sonra da atacaqdır. Bütün bunların fonunda Avropadan təzyiq xarakterli Azərbaycana yönəlik səslənən bəyanatlar anti-Azərbaycan qüvvələrinin təzyiqidir. Bu hal hələ də davam edir. Hər kəs bilir ki, Ermənistanda hansı hadisələr baş verir. Lakin Avropa Şurası və İttifaqının onlara olan münasibətlərindəki fərqləri görməmək mümkün deyil. Təcavüzkar ölkədə gedən proseslərə ya bigana qalırlar, ya da olduqca yumşaq mövqe sergiləyirlər. Azərbaycanda Ermənistandakı hadisələr təkrar olunmur. Sabit bir ölkə kimi Azərbaycan tutduğu yolla gedir. Ölkəmiz vətəndaş cəmiyyətinin qurulmasına, demokratiyanın qorunmasına xüsusi önəm verir. Yaxınlarda ölkə rəhbərinin sərəncamı ilə böyük bir əfv sərəncamı imzalandı. Bu sərəncam 634 nəfər məhbusa şamil edildi. Beynəlxalq təşkilatların siyasi məhbus adlandırdıqları şəxslər əfv üçün müraciət etmirlər, dövləti özlərinə borclu hesab edirlər. Özlərində belə fikir formalaşdırıblar ki, müvafiq qurumlar bunların qarşısında baş əyməli, şlyapasını çıxarıb tənzim etməli, onlara haqq qazandırmalıdır. Bizlər Avropa Şurası və İttifaqının, AŞ PA-nın, digər beynəlxalq qurumların belə təzyiqlərinin zaman-zaman şahidi oluruq. Bütün bunların heç biri Azərbaycanı tutduğu yoldan geri döndərmir, bundan sonra da döndərməyəcək. Əgər Avropa Şurası və İttifaqı haqqı bu qədər müdafiə edirlərsə, o zaman Ermənistana təzyiq etsinlər, onlar işğal etdikləri torpaqlardan rədd olub getsinlər, bir milyona yaxın məcburi köçkünümüz ata yurdlarına qayıtsınlar. Amma bunları etmirlər, əvəzində ən müxtəlif yollarla Azərbaycana qarşı təzyiq edirlər".

**Deputat Azərbaycanı AŞ PA-nın qarşıdan gələn yay sessiyasında nələri gözlədiyindən də söz açdı:** "Düşünürəm ki, AŞ PA-da Səməd Seyidov öz fəaliyyətini davam etdirməlidir. Çünki almış olduğumuz informasiyaya görə, orada korrupsiya ilə bağlı heç bir fakt yoxdur. Yaxınlarda Elxan Süleymanovun bir yazısını oxudum. O, konkret faktlarla, sənədlərlə onların qərəzli olduğunu sübut etdi. Azərbaycanı istəyən, buradakı inkişafa sevinən, Azərbaycanla beynəlxalq qurumların münasibətlərinin yaxşı olmasında maraqlı olan vicdanlı insanlara onlar qərəzli şəkildə hücumlar edirlər. Çünki həmin şəxslər Azərbaycana qarşı olan qətnamələrin əleyhinə səs veriblər. Bunların mahiyyəti budur. İstənilən halda öz mövqeyimizdə dayanmalıyıq. Azərbaycan parlamenti ehtiyac bilərsə, Səməd Seyidovu başqası ilə əvəzləyə bilər. Bu olmasa, o fəaliyyətini davam etdirməlidir. Şəxsən mənim mövqeyim onun fəaliyyətini davam etdirməsi yönündədir. Onların avantürist siyasətinə qarşı kifayət qədər nüfuzlu deputatımızı qurban verməli deyilik".

**Cavanşir ABBASLI**
**"Yeni Müsavat"**

**"Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənovun iyunun 20-də keçirdiyi mətbuat konfransında ölkə cəmiyyətinə və Ermənistana verdiyi son mesajlar gündəmin əsas mövzularından biridir. Xəbər verdiyimiz kimi, müdafiə naziri Ermənistana ciddi mesajlar ünvanlayıb. Onun ən çox diqqətçəkən fikirlərindən biri Azərbaycanın son olaraq aldığı müasir silahlar və döyüş sistemləri ilə bağlıdır.**



# "Azərbaycan ordusu üçün geriyə yol yoxdur"

## Siyasi ekspert Azərbaycanın müdafiə nazirinin Ermənistana verdiyi son mesajları dəyərləndirdi

**Qərb Universitetinin Tətbiqi Politologiya Mərkəzinin rəhbəri Elxan Şahinoğlu nazirin mətbuat konfransının ciddi əhəmiyyət daşıdığını dedi:** "Birincisi, Zakir Həsənov müdafiə naziri təyin olunandan sonra ilk dəfə geniş mətbuat konfransı keçirdi. Buna çox ehtiyac var idi. Çünki Ermənistan Azərbaycana qarşı həm də informasiya müharibəsi aparır. Bunu önləmək üçün də daima ordu rəhbərliyi cəmiyyətə mövcud vəziyyət barədə bilgi verməlidir. İkincisi, Zakir Həsənov mətbuat konfransını isti otaqda deyil, döyüş əməliyyatlarının keçirildiyi ərazidə təşkil etdi. Bu da Azərbaycanın Ermənistanla apardığı informasiya müharibəsində vacib amil idi. Üçüncüsü, Azərbaycan cəmiyyəti ordunun Naxçıvandakı əməliyyatının təfərrüatlarını bilmək istəyirdi və Zakir Həsənov mətbuat konfransında bu əməliyyatın detallarına toxundu. Onun mətbuat konfransında söylədiklərini bir neçə hissəyə bölmək olar. Birinci hissədə müdafiə naziri Azərbaycan ordusunun vəziyyətinə toxundu. Zakir Həsənov müdafiə naziri təyin olunduqdan sonra açıq-aşkar Azərbaycan ordusunun ərzaq təminatı güclənib. Müdafiə nazirinin sözlərindən məlum oldu ki, Azərbaycan ordusu bir ayda 500 tondan çox ətdən istifadə edir. Bir sözlə, dövlət ordunun həm ərzaq, həm də maddi texniki bazasının gücləndirilməsi üçün istənilən maliyyəni ayırmağa hazırdır. Keçmiş illərdə orduda neqativ hallar barədə xəbərlər olardı. İndi bu haqda xəbərlər ya yoxdur, ya da son dərəcə azdır. İkinci hissədə müdafiə naziri Naxçıvandakı hərbi əməliyyatın detallarına toxundu. Erməni tərəfi bu barədə susmağa və ya dezinformasiya yaymağa üstünlük verir. Guya Naxçıvandakı torpaqlar onlara lazım deyilmiş. Bununla Ermənistan Azərbaycan ordusunun Naxçıvanda qazandığı uğurun miqyasını azaltmağa çalışır. Zakir Həsənov Naxçıvandakı əməliyyatı çox uğurlu adlandırdı, Ermənistan hakimiyyətinin "neytral torpaq" anlayışını bu sözlərlə alt-üst etdi: "Sahibsiz torpaq yoxdur. Ora bizim torpaqlarımızdır. Ordumuzun uğurlu əməliyyatı nəticəsində 11 min hektar ərazi işğaldan azad edildi". Naxçıvandakı əməliyyatın əhəmiyyətini daha bir amil artırır: Laçına gedən yol Azərbaycan ordusunun nəzarətinə keçib. Bu o deməkdir ki, ermənilərin sözlərindən fərqli olaraq azad olunan yüksəkliklər strateji əhəmiyyətə malikdir. İndi vacib olan həmin yüksəkliklərdən işğalçının problemlərini artırmaqdır. Nazir üçüncü hissədə Azərbaycanın aldığı yeni hərbi texnikadan danışdı. Digər tərəfdən, Azərbaycan ordusu bu gün ən müasir raket və artilleriya sistemlərinə malikdir. Nazirin sözlərindən də anlaşılır ki, bu raketlər işğalçının istənilən hədəfini məhv etməyə qadirdir. Bütün bu texnikalar iyunun 26-da keçiriləcək hərbi paradda nümayiş etdiriləcək. Böyük ehtimalla həmin paradda Azərbaycanın İsraildən aldığı və Ermənistanın çox qorxduğu raketlərdən müdafiə sistemi olan "Dəmir günbəz" də nümayiş etdiriləcək".

**Politoloq iyunun 26-da ordumuzun yaradılmasının 100 illiyi ilə bağlı keçiriləcək hərbi paradı Azərbaycan üçün çox vacib sayır:** "Sonuncu hərbi parad Azərbaycanda 2013-cü ildə keçirilmişdi. Bu illərdə Azərbaycan bir neçə dövlətdən milyardlarla dollar həcmində xeyli hərbi texnika alıb. Bundan başqa, Azərbaycan hərbi sənaye kompleksinin istehsal etdiyi hərbi texnika da var. Bütün bunları dünyaya, o cümlədən işğalçı Ermənistana nümayiş etdirmək vacibdir ki, gücümüzü görsünlər. Ermənistandakı hazırkı xaos və anarxiya dövründə hərbi paradımız ciddi psixoloji təzyiq vasitəsi olacaq".

Elxan Şahinoğluna görə, Ermənistanın yeni hakimiyyətinin hərəkətləri və təxribatları münaqişənin sülh yolu ilə həllinə imkan vermir: "Ona görə münaqişənin həllinin yeganə yolu Azərbaycan ordusunun gücü ilə bağlıdır. Mənə elə gəlir ki, Azərbaycanın hərbi təyyarələri artıq Dağlıq Qarabağın da səmasında uçuşlara başlamalıdır. Beynəlxalq qurumlar Qarabağın hava məkanının Azərbaycana məxsus olduğu hüququ tanıyır. Belədirsə, təyyarələrimiz oralarda uçuşlara başlamalıdırlar. Kimsə bizə bunu qadağan edə bilməz. Əlbəttə, hazırda Rusiyada futbol üzrə dünya çempionatı keçirilir. Dünyada 1 ay hamı Rusiyadan və rusların qonaqpərvərliyindən danışacaq. Ona görə də Putin bu yarışa xüsusi önəm verir, həm özünün, həm də Rusiyanın müsbət imicinin formalaşdırılmasına çalışır. Putini ən çox narahat edən çempionat boyu yaxın ətrafda sakitliyin pozula biləcəyidir. Məsələn, Putin çox ehtiyat edir ki, Ukrayna ordusu məqamdan istifadə edərək Donbas separatçılarına qarşı hücum əməliyyatlarını həyata keçirə bilər. Putin Azərbaycanla Ermənistan arasında təmas xəttində də heç olmazsa 1 ay atəşkəsə riayət edilməsini arzulayır. Təsadüfi deyil ki, Putin çempionatın açılışı sırasında Nikol Paşinyanı İlham Əliyevlə tanış edib və liderlər bir-birilərinin əllərini sıxıblar. Atəşkəsin kövrək olduğunu bilirik. Ancaq hər halda, Moskvada çempionatın açılışına qatılan liderlər Putinin xahişini də yerə salmayacaqlar. Buna baxmayaraq, bizim üçün düyməyə basılıb. Azərbaycan ordusu üçün geriyə yol yoxdur. Bu qədər silah və sursat paslanmaq üçün alınmayıb".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# Azərbaycan möhtəşəm hərbi parada hazırlaşır

## Ən son raket sistemləri nümayiş olunacaq; "Türkiyə şahinləri" "Azərbaycan qartalları" ilə birgə Bakı səmasında nümunəvi çıxış edəcəklər

**Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 100 illik yubileyi ilə bağlı iyunun 26-da Azadlıq meydanında keçiriləcək hərbi parada hazırlıq işləri yekunlaşmaq üzrədir. Parad və iştirakçılar barədə plakatlar asılıb, məşqlərin iyunun 24-dən başlayacağı bildirilir. O zamanadək hərbi texnikanın əraziyə gətiriləcəyi gözlənilir. Bu arada Azərbaycan ordusunun Hərbi Hava Qüvvələri artıq məşqlərə start verib. Yayılan görüntülərdə helikopter və təyyarələrin Bakı buxtası üzərində uçuşlar həyata keçirdiyi görünür. Döyüş təyyarə və helikopterlərinin bayram tədbirində nümunəvi çıxışlar edəcəyi gözlənilir.**



Müdafiə Nazirliyi paradda nümayiş etdiriləcək silahlar və hərbi texnikanı rəsmi şəkildə açıqlamayıb. Bununla belə, təntənəli mərasimdə son 5 ildə Azərbaycan ordusunun arsenalında olan ən müasir texnika və silahların sərgilənəcəyi gözlənilir. Müdafiə naziri, general-polkovnik Zakir Həsənov paradda nümayiş olunacaq bəzi silahlar haqda məlumat verib. Müdafiə naziri deyib ki, Silahlı Qüvvələrimizin daha dəqiq, daha səmərəli, daha uzaq məsafədən düşmənin hədəflərini dəf edərək məhv etməyə qadir olan raketləri var: "Bizim Hava Hücumundan Müdafiə Qoşunları ən müasir hava hücumundan müdafiə sistemləri ilə təchiz olunublar. Onlar həm aerodinamik hədəfləri məhv edə bilir, həm də müxtəlif növ raketləri məhv etməyə qadirdirlər. Siz onları parad zamanı da görəcəksiniz".

**Hərbi ekspert Üzeyir Cəfərov bildirib ki, bu il çox möhtəşəm parad keçiriləcək, tədbir əvvəlkilərdən bir çox özəllikləri ilə fərqli olacaq:** "Paradın əhəmiyyəti hər mənada çox böyükdür. Sürprizlər olacaq. İyunun 26-da Azərbaycan xalqı və bütün izləyicilər çox möhtəşəm bir tədbirə şahidlik edəcək. Müdafiə Nazirliyinin rəhbərliyi əvvəlki illərdən fərqli bir ssenarini təsdiq edib. Azərbaycan ordusunun yaranmasının 100 illiyi münasibəti ilə keçiriləcək paradın möhtəşəmliyi ilə seçilməsi üçün addımlar atılıb. Bildiyim qədər Azərbaycan Müdafiə Nazirliyinin rəhbərliyində təmsil olunan bir neçə şəxsə də ali hərbi rütbələr veriləcək. Artıq onların namizədliyi verilib. Azərbaycan indiyə qədər bir neçə hərbi parad keçirib. Paradda yeni silahlar da olacaq. O silahları Müdafiə Nazirliyinin rəhbərliyi ölkə başçısı ilə razılaşdırandan sonra parada çıxara bilir. Bir neçə silah növünün nümayişi planlaşdırılır. Çox maraqlı parad gözlənilir. 100 illiyə qardaş Türkiyənin Silahlı Qüvvələrindən də "Türk şahinləri" qatılıb, Azərbaycan səmasında öz məharətlərini göstərəcəklər. Sözsüz ki, düşmənə və bütün dünyaya Azərbaycan Silahlı Qüvvələrinin bu günədək əldə etdiyi nəticəni göstərməyə çalışacaqlar. Çox intensiv məşqlər gedir. Şəxsən müdafiə naziri Zakir Həsənovun və baş qərargah rəisi Nəcməddin Sadıqovun rəhbərliyi altında bütün güc strukturlarının parad üçün hazırlanmış kontingenti, Bakı ətrafında olan hərbi hissələrin birində hazırlıqlarını həyata keçirirlər. Arzu edək ki, parad təkcə Bakıda deyil, tezliklə işğaldan azad olunacaq ərazilərimizdə də keçirilsin. 2016-cı ilin aprel döyüşlərində fərqlənən insanların Azərbaycan televiziyası və mətbuat vasitəsilə təqdimatı planlaşdırılır. Zəngin bir proqram hazırlanıb və bu, Müdafiə Nazirliyinin rəhbərliyi, ölkə başçısı tərəfindən təsdiq olunub. Hamı böyük səylə hazırlaşır".

**Üzeyir Cəfərov deyib ki, son illərdə Azərbaycan Silahlı Qüvvələri ayrı-ayrı ölkələrdən ən müasir, yəni 4-cü nəsil silah-sursat alıb. Öz silahlı qüvvələrini NATO-nun müxtəlif tədbirlərində təqdim edib. İndiyə kimi Azərbaycan bir neçə sülhyaratma missiyasında iştirak edib. Kosova, İraq, Əfqanıstanda da şəxsi heyətin sayı artırılıb:** "Sözsüz ki, parad ordunun gücü, qüdrətidir və düşmənə də bir mesajdır. Prinsipcə bizim düşmənə nəyisə göstərməyə ehtiyacımız yoxdur. Yeni Azərbaycanın şəxsi heyəti say baxımından, əldə etdiyi silah-sursatın miqyasına görə düşməndən qat-qat fərqli durumdadır. Yalnız bəzi siyasi məsələlərə görə biz bu gün torpaqlarımızın işğal altına alınması ilə üz-üzəyik. Ancaq bunun da yəqin ki, bir məntiqi sonu olmalıdır və olacaq. Sözsüz ki, bu paradın da əhəmiyyəti odur ki, burada yeni elementlər nümayiş olunacaq. Əvvəlki paradlarda gördüyümüz şablonlarla yanaşı, yəni şəxsi heyətin keçidi, döyüş texnikasının nümayişindən başqa, bəzi yeni silahlar da göstəriləcək ki, bu silahların da çox böyük əhəmiyyəti var".

Hərbi Ekspert Ramil Məmmədli deyir ki, paradda müdafiə sənayesi kompleksinin istehsalı olan yeni silahlar, pilotsuz uçuş aparatları, eləcə də xaricdən alınan hərbi texnika nümayiş olunacaq. Milli pilotsuz uçuş aparatları məhz bu tədbir zamanı ilk dəfə geniş ictimaiyyətə təqdim olunacaq.

Paradda müdafiə sənayesi kompleksində yaradılan zirehli maşınları, Müdafiə Sənayesi və Müdafiə Nazirliklərinin birgə istehsalı olan maşınları, iri çaplı pulemyotları, yeni döyüş modullarını da görmək mümkün olacaq.Tədbirdə yerli istehsal olan və müasir standartlara cavab verən silahların da nümayişi planlaşdırılır.

❑ **E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 133 (7022) 22 iyun 2018

**Sabiq nəqliyyat naziri Ziya Məmmədovun ailə biznesinin cəmləşdiyi "Garant Holding"in törəmə müəssisəsi olan "Garant İnşaat Sənaye" MMC növbəti dəfə adını dəyişib. İndi o, "Fortis Group" adlanır. Tikinti materialları istehsal edən zavod - "Azbentonit" MMC 2004-cü ildə Abşeron rayonunda istismara verilib. 2015-ci ilin sentyabr ayında 25 milyon manat kapitalı olan şirkətin adı dəyişdirilərək "Garant İnşaat Sənaye" adlandırılıb. Bu ilin may ayında şirkətin kreditorlarına kapitalın 7,2 milyon manat azaldılması ilə bağlı xəbərdarlıq edilib.**

# Ziya Məmmədovun holdinqi "sökülür"

## "Garant Holding"in ofisi bağlıdır, şirkətin telefonları söndürülüb



Ziya Məmmədov ötən ilin fevralında Nəqliyyat Nazirliyinin Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə birləşdirilməsindən sonra işsiz qalıb. Həmin günlərdə digər və daha kiçik bir vəzifəyə təyinat alacağı ümidi ilə yaşayan sabiq nazirin gözləntiləri gerçək olmadı. Bundan sonra onun "Garant Holdinq"ə rəhbərlik edəcəyinə dair xəbərlər yayılmışdı. Lakin bu da baş vermədi. Ziya Məmmədov postunu itirəndən sonra verdiyi müsahibəsində artıq sadə vətəndaş olduğunu bildirmişdi. Demədiyi bircə məqam vardı - 100 milyonlara sahib sadə vətəndaş. Onun nazirliyinə son verildiyi günlərdə Ziya Məmmədovun ailə biznesinin tezliklə çökəcəyi barədə məlumatlar vardı. Sabiq nazirin biznes strukturlarını təhvil verməyə razılaşdığı xəbərləri yayılmışdı. İddia olunurdu ki, oğlu Anar Məmmədov ölkədən kənarda yaşasa da, Ziya Məmmədova Azərbaycan hüdudlarından kənara çıxmaq yasaqlanıb. Keçmiş nazirin ailəsi uzun illər hüdudsuz səlahiyyətləri nəticəsində ölkə iqtisadiyyatının neft daşımaçılığından tutmuş "fast-fud" fəaliyyətinədək, böyük bir spektrində hökmranlıq edə biliblər. 2005-ci ildən 2013-cu ilə qədər "ZQAN Holdinq" adı ilə fəaliyyət göstərən Məmmədovların biznes imperiyası "Garant-Holdinq"ə çevriləndən sonra da təsir imkanlarını daha da artırdı. "Garant Holdinq"in tərkibinə 17 yerli şirkət daxil idi. Bunlar "Qarant Sığorta" ASC, "Azbentonit" MMC, "Royal İsteyt" MMC, "Qarant Tour" MMC , "English Yard" MMC, "Quba Olimpiya Kompleksi" MMC, "Avto-Media" MMC, "Ucar Aqro" MMC, "M.Trans" MMC, "Ameritex" MMC, "Transevrokom" MMC, " Zqan konstrakşn" MMC, "Turbo.az" MMC, "Qarant Sığorta Agenti" MMC, "Quba Resort" MMC, "AFK" MMC, "Delfin" MMC və "Goranboy Gips" ASC-dir...

Holdinqə daxil olan şirkətlər istehsal, tikinti, logistika, hotel və daşınmaz əmlak, kənd təsərrüfatı və sair sahələrdə fəaliyyət göstərirdi. Hələ Ziya Məmmədov nazir olanda bu şirkətlərdən fəaliyyətini dayandıranlar var idi (məsələn, "Qarant Sığorta"). Amma bu, Məmmədovlar imperiyası üçün elə də böyük itki hesab olunmurdu. Gələn məlumatlar deməyə əsas verir ki, sabiq nazirin ailə biznes imperiyası sürətlə çökməkdədir. Məmmədovların şimal bölgəsində olan bizneslərinin təhvil-təslimi başlayıb. Xüsusilə Qubada "Garant Holding"in fəaliyyəti tam sıxışdırılıb. İş orasındadır ki, Məmmədovların ölkənin səfalı yerlərində böyük villaları da var ki, indi onları satmaq probleme çevrilib. Məmmədovlar isə Azərbaycandakı bütün əmlaklarını - hotellərdən tutmuş restoranlaradək, satmaq niyyətini gerçəkləndirməkdədirlər. Bundan əvvəl isə "Garant Holding"in bir hissəsini təşkil edən, ən iri quş əti istehsalçılarından olan "Ucar Aqro"nu itirən Məmmədovlar daha bir "xırda" bizneslərindən əllərini çəkiblər. "Garant Holding"in nəzarətində olan KFC restoranlarının mülkiyyətçisi aylar əvvəl rəsmən dəyişib. Məşhur KFC "fast-fud" restoranlarını Azərbaycana 2010-cu ildə başqa bir iş adamı, "PNN Group" şirkətinin vitse-prezidenti Nəsib Piriyev gətirmişdi. O, "AFK" MMC-ni qurdu, Bakıda bir-birinin ardınca 3 restoran açdı, şirkətin kapitalını 5,6 milyon manata çatdırdı. Sonradan şirkət Anar Məmmədova ötürüldü. Şəbəkə "Garant Holding"ə keçəndən sonra sayca dördüncü KFC restoranı o zaman Nəqliyyat Nazirliyinin tabeliyində olan "Azərbaycan Dəmir Yolları" QSC-yə məxsus olan, "28 May" metro stansiyası yaxınlığında yerləşən tarixi binada açılmışdı. Ziya Məmmədov nazir kreslosunu itirəndən sonra həmin restoran "başqa ünvana köçmək" adı ilə bağlanıb.

"Garant Holdinğ" şirkətinin rəsmi web saytı sonuncu dəfə 2014-cü ilin oktyabrında yenilənib. "Garant Holding"in ofisi isə bağlıdır, şirkətin telefonları söndürülüb. Məmmədovlarla böyük hesablaşma başlayıb...

❑ **E.HÜSEYNOV, "Yeni Müsavat"**

---

**Lerikdə baş verən rüsvayçı hadisənin iştirakçıları qaldı qıraqda, sosial şəbəkə trolları olayla yaxından, uzaqdan əlaqəsi olmayan adamlara, ən çox da bu sətirlərin müəllifinə hücum etdilər. Nə var, nə var, ortaya çıxan faktın tibbi tərəfinə dair bir neçə kəlməlik izahat verməyə çalışmışdım.**



**Xalid KAZIMLI**

# Zorlama olayının pərdəarxası və trollar taborunun terroru

Özü də mənim şərhimdə o lerikli qız haqqında konkret bir cümlə yox idi, cümlə "elə qızlar olur ki" girişi ilə başlayırdı.

### Tez yetişmə o demək deyil ki...

Söhbət akselerasiyadan, tez böyümə, cinsi yetişkənliyə tezçatma hadisəsindən gedirdi. Dünyada belə bir tendensiya var, son əlli ildə xeyli şiddətlənib. Xüsusilə də isti ölkələrdə. Yazıçı-tərcüməçi, filoloq alim Qəzənfər Paşayevin hələ 33 il öncə İraqda işlədiyi vaxt yazdığı "Altı il Dəclə-Fərat sahillərində" kitabında da bu barədə qeydlər var. Alim iraqlı qızların 13-14 yaşında ərə verilməsinin təkcə adət-ənənələrlə bağlı olmadığını, eləcə də qızların artıq cinsi münasibət üçün yetişkin olduqlarına görə baş verdiyini yazır.

Erkən nikahlar və cinsi həyata erkən başlama tendensiyası bütün dünyada var. Ancaq elmi-tibbi baxımdan sübut olunub ki, erkən cinsi həyata başlamaq həm orqanizm üçün zərərlidir, həm də ictimai həyata hazır olmaq baxımından məqsədəuyğun deyil. Elə qanunvericilikdə nikah yaşının 18 (istisna hallarda 17) nəzərdə tutulmasının əsası da bu kimi tibbi, sosioloji müddəalara əsaslanır.

Bu da o deməkdir ki, azyaşlılarla cinsi əlaqəyə girmək, onları bu əlaqəyə təhrik, təşviq etmək cinayətdir. Həm də ciddi cinayətdir. Erkən cinsi əlaqəyə başlamağın nə cinayət, nə də qəbahət olmadığı, belə faktların ümummilli rüsvayçılıq sayılmadığı ölkələrdən fərqli olaraq, bu, Azərbaycan kimi ölkələrdə xüsusilə ağır cinayətdir, böyük bir rüsvayçılığa, eləcə də ardınca digər cinayətlərə (o cümlədən intihara sövq etmə və qətl) rəvac verə biləcəyi üçün ağır kriminal hadisədir.

Ancaq belə bir nüans da var ki, hər cinsi əlaqə də zorlama deyil. Bir azyaşlı qız və yetkin oğlan könüllü, qarşılıqlı razılıq əsasında, sırf bir-birini sevdikləri üçün də cinsi münasibət yaşaya bilərlər. Bu da tərəflərin məsuliyyətini, xüsusilə də yetkin gəncin günahını azaltmır, onu məsuliyyətdən azad etmir.

Ona görə də məsələyə bu cür, hərtərəfli, daha geniş prizmadan yanaşarkən, bu, hələ o anlama gəlmir ki, müəllif uyğun hadisədəki tərəflərin hansınısa qınayır, yaxud da kiminsə tərəfini tutur. Əsla! Hər kəs öz həyatını yaşayır, problemlərini necə, nə cür həll edəcəklər, özləri, ağsaqqal bilər. Yəqin ki, istər hüquqi, istərsə də məişət müstəvisində bunun bir yolu tapılacaq. Belə hadisələr həmişə olub və həmişə də çözülüb. Gendən durub insanların həyatına aid ssenarilər diktə etmək heç kəsin həddi deyil.

### Trolların "stəkanda fırtınası"

Bu baxımdan sosial şəbəkədə qopmuş tufan sadəcə "stəkanda fırtına" idi. Hər şeyi qırağa qoyaraq adi bir fikir bildirmiş şəxsə hücumlar isə isterikanın zirvəsiydi. Bu qədər çılğınlığa, hövllənməyə, özünü Dostoyevskinin dərdli personajlarının yerinə qoyaraq əsəbi monoloqlar irad etməyə ehtiyac yox idi.

Hərçənd bu çılğınlığın hansı səbəblərdən ortaya çıxdığı da aşağı-yuxarı məlumdur, izahı var.

Çoxdandır bu ölkədə sosial şəbəkə siyasi mübarizə meydanıdır. Hər kəs öz təbliğat-təşviqatını, intriqasını burada aparır. Trolların başqa işi-gücü yoxdur, gündəm xəbəri olmuş istənilən olaydan öz siyasi rəqiblərini "vurmaq" üçün istifadə etməyə çalışırlar. İqtidar tərəfdarları da əllərinə düşən münasib faktlardan müxalifətçilər əleyhinə yararlanmağa cəhd edir, müxalifətçilər də hər olaydan, faktdan eyni məqsədlə yararlanmaq istəyirlər.

Lerikdə zorlamada ittiham olunan oğlanın təqdimatında bir "məmur qohumu" ifadəsi keçmişdi, siyasət trolları bundan yapışaraq hay-küy qoparmışdılar, yazırdılar ki, öz vəzifə mövqelərindən istifadə edərək işin üstünü ört-basdır edirlər. (Adı göstərilən məmur isə hətta rayon səviyyəsi üçün onuncu dərəcəli bir vəzifənin yiyəsidir).

Bu hadisənin çılğın reaksiyalara səbəb olmasının əsas səbəbi bu idi. Əksinə olsaydı, yəni azyaşlı qız məmur övladı, onunla cinsi əlaqədə olan oğlan isə çoban oğlu olsaydı, bu məsələ bu qədər böyük ajiotaj doğurmayacaqdı, hətta özünü ülgücləyən bir çoxlarının hadisəyə münasibəti belə olacaqdı: "Yaxşı eləyib, düyə göz eləməsə..."

Hər bir hadisəni bu cür zümrələrarası münaqişəyə çevirmək, ictimai təbəqələr arasında nifrət yaratmaq və onu körükləyib qızışdırmaq istəyənlər ona görə hövllendilər ki, onların düşüncəsi ilə düz gəlməyən bir fikir səslənmişdi.

Bizdə onsuz da çoxdan belədir: sosial şəbəkənin əksər fəalları bir hadisənin əsl məğzini, təfərrüatlarını bilmədən, eləcə xəbər başlığını oxuyaraq uzaq gedən nəticələr çıxarır, birmənalı hökmlər verirlər. Bir çoxları da sadəcə küyə gedir. Təfərrüatlar sonra meydana çıxır, məlum olur ki, çoxları fikir bildirərkən tələsib və yanılıb. Amma bunun artıq heç nəyə dəxli yoxdur, söyülən söyülüb, təhqir olunan olunub. Ən pisi odur ki, bu, tezliklə sağalan xəstəlik deyil.

### Feministlərin yanlış düşüncəsi: "Qadın həmişə məsumdur, kişi həmişə təqsirkardır"

Bir də belə məsələlərə sırf qadın həmrəyliyi baxımından, feminist düşüncələrlə yanaşanlar var. Hücumçuların arasında siyasi trollarla yanaşı elələri də vardı. Bu xanımlar üçün bütün hallarda kişilər günahkardır - əgər qadın əri tərəfindən döyülübsə də, kişi təqsirkardır, hətta kişi arvadı tərəfindən öldürülübsə də, yenə kişi suçludur. Bu cür düşünənlər həmin şərhdə öz betonlaşmış fikirlərinə əks mövqe görmüşdülər. Hərçənd hər bir hadisənin bütün detallarına baxmaq, hər kəsin məsuliyyət payını ayırd etmək, insanların suçunu müəyyən edərkən cinsi fərq qoymamaq lazımdır. "Qadın həmişə məsumdur, qurbandır, kişi həmişə aqressivdir, günahkardır" kimi bir mövqe obyektiv mülahizə deyil.

### Trolların daimi hədəf axtarışı

Qayıdaq trollara. Bir daha sübut olunur ki, onlar heç bir polemika mədəniyyəti olmayan, birinci, ən uzağı ikinci cümlədəcə təhqiramiz ifadələr, açıq söyüşlər işlədən, mübahisəyə girişdiyi adamı kriminal aləm ünsürlərinin etdiyi kimi "neprav çıxarmağa" çalışan adamlardır. Onlar elə bilirlər ki, mübarizə aparırlar. Özlərini haqq-ədalət carçısı, dürüstlük mücəssəməsi sayırlar. Ancaq elə deyillər, çoxu qərəzli və ədəbsizdir. Bu şəxslər söyüşü, təhqiri mübarizə üsuluna çevirmiş təşkilatlarda birləşiblər, bəzən komanda alanda, bəzən də sırf spontan şəkildə kiminsə üstünə hücuma keçirlər. Elə bir gün olmaz ki, kütləvi şəkildə söymək, qınamaq, pisləmək üçün hansısa bir hədəf tapmasınlar. Bu deputat da ola bilər, adi jurnalist də, yazıçı da, məmur da. Bu trolların psixoloji terroru üzündən artıq tanınmış insanlar heç nə barədə fikir bildirmək istəmirlər, kütləvi şəkildə söyüləcəklərindən qorxurlar.

Trollar özlərinin bütün aqressiyalarını, enerjilərini bu yolla, virtual inqilabçılıqla tükədir, sakitləşirlər. Bu, artıq həyat tərzinə çevrilməkdədir. Belələrinin arasında ən cürətlilər xaricdə olanlardır. Onlar düşünürlər ki, hər kəsi söyə bilərlər, heç kimin əli onlara çatmayacaq. Bəziləri də yalandan ünvanlarını xaricdəymiş (Türkiyə, Almaniya, Hollandiya, Fransa) kimi göstərirlər, amma əslində buradadırlar və sutka ərzində hər hadisəyə münasibət bildirirlər.

Bəs bu virtual mübarizənin, çılğınlığın, həqarət, nifrət püskürməsinin sonu necə olacaq? Belə edənlər, nəhayət, sakitləşəcək, uğur qazanacaqlarmı? Əl-əlbət, sakitləşəcəklər, amma uğur qazana bilməyəcəklər. Bu sektant təfəkkürü ("bizə qarşı olanların dili, başı kəsilməlidir") ilə heç bir siyasi uğur qazanmaq mümkün deyil. Trollar taborunun terror iflasa məhkumdur.

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# İrəvanın artan müharibə təlaşı, Bakının "B planı"...

## Ermənistanın yeni rəhbərliyinin Qarabağ məsələsində davranışı müharibəni qaçılmaz edir; **işğalçı ölkənin Təhlükəsizlik Xidmətinin katibi:** "Qarabağda bizim problemlərimiz var..."

**Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənovun jurnalistlər üçün son brifinqdə silahlı qüvvələrimizlə bağlı verdiyi açıqlamalar, şübhə yox ki, öncəliklə işğal altındakı ərazilərimizi "su yolu"na döndərmiş erməni baş nazir Nikol Paşinyan və prezident Armen Sərksiyana xəbərdarlıq mesajlarıdır. Onların təxribatçı, faktiki, müharibə çağırışı anlamı verən bu kimi hərəkətlərinə özünəməxsus cavabdır.**



Aydındır ki, belə qanunsuz səfərlər düşmənin "həm qorxmaq, həm də qorxutmaq" ovqatına dəlalət edir. Başqa sözlə, işğalçı ölkənin yeni rəhbərliyi bir yandan guya Dağlıq Qarabağa da nəzarət etdiyini nümayiş etdirmək istəyir, o biri yandan isə Azərbaycan ordusunun hər an hərəkətə keçməsindən dolayı haqlı təlaş keçirir. Bütövlükdə işğalçı ölkənin sülh danışıqlarından qaçan yeni rəhbərliyinin davranışı müharibəni günbəgün yaxınlaşdırmaqdadır.

*****

**"Dağlıq Qarabağda yaşanan qalmaqallı vəziyyət səngiməkbilmir". "Yeni Müsavat"ın məlumatına görə, bu sözləri axar.az-a araşdırmaçı-jurnalist politoloq Tofiq Abbasov Dağlıq Qarabağdakı vəziyyətlə bağlı şərhində deyib.**

"Qarabağda hərbi xunta rəhbərləri, insanları qarət edən və mənfur separatçılığa yol verən ünsürlər faktiki olaraq oradakı əhalini kazarma rejimi şəraitində xeyli məhrumiyyətlərə məruz qoyublar. Bu baxımdan Ermənistan siyasi elitası Qarabağın "müdafiəsi" ilə bağlı elan olunmamış səfərbərlik keçirir. Bu, hətta Nikol Paşinyanın oğlunu Qarabağda hərbi xidmətə göndərməsi timsalında da təsdiqini tapır. Çünki İrəvanda rəhbər personalar və qondarma rejimin başçısı 25 ildən artıqdır ki, davam edən bu mifik layihənin bir anda partlaya biləcəyindən ehtiyat edirlər", - deyə politoloq bildirib.

**Politoloq bu fonda Azərbaycanın ciddi və ardıcıl hərbi hazırlıqlara üstünlük verməsini yüksək qiymətləndirir:** "Bu onu göstərir ki, Bakı "B planı" üzərində çalışır. Əgər Ermənistan danışıqlar prosesini iflic vəziyyətinə salsa, onda Azərbaycan "B planı"nı həyata keçirməyə məcbur olacaq. Artıq son proseslər də ondan xəbər verir ki, vəziyyət daim belə qala bilməz".

*****

Şübhə yox ki, Azərbaycan milyardlar xərcləyib aldığı müasir bahalı silah-sursatı və döyüş sistemlərini əbədi olaraq anbarlarda saxlamaq niyyətində deyil. Bir gün bu silahlar düşmənin başına mütləq od saçacaq. İşğalçı isə ümidini Rusiyaya, öz ərazindəki rus hərbi bazasına bağlayıb. Lakin Azərbaycan Ermənistana hücum eləməyə hazırlaşmır.

**Hərbi ekspert Üzeyir Cəfərov deyir ki, yaranmış vəziyyətdə Ermənistanın ümid etdiyi yeganə hərbi qüvvə öz ərazisində olan Rusiya bazalarıdır:** "Amma onlar da Azərbaycan sərhədləri daxilində hər hansı bir prosesdə iştirak edə bilməz. İndi Azərbaycan Silahlı Qüvvələri də hər mənada tamam fərqlidir. Bu gün ordumuzun hazırlığı ən yüksək səviyyədədir. Müdafiə Sənayesi Nazirliyinin hazırladığı silah-sursatlar və Azərbaycanın xaricdən aldığı hərbi texnikalar ordumuzun gücünə güc qatır. Bu silahlar qarşısında Ermənistan acizdir. Bu gün bizim imkanlarımız kifayət qədər genişdir. Ordumuz həm şəxsi heyətin sayına, həm də silah-sursat və texnikasına görə Ermənistanı qat-qat üstələyir".

Əfsuslar olsun ki, bu əzici üstünlüyü Azərbaycan hələ ki maddiləşdirə bilməyib. Yeni torpaqlarımız işğal altında qalmaqda davam edir. Sözsüz ki, əsas əngəl Rusiya amili olaraq qalır. Moskva öz forpostunun arxasında zor-xoş durmaq imperativi qarşısındadır. Odur ki, Bakı böyük antiterror əməliyyatı üçün ən əlverişli fürsət yetişənə kimi gözləməyə məhkumdur.

Ona kimi isə lokal hərbi əməliyyatlarla, "addım-addım" taktikası ilə ərazilərimizin azad edilməsi davam etməli, düşmən daima ciddi canlı və texniki itkilərə məruz qoymalıdır, necə ki, edilir. İşğalçı daim hiss eləməlidir ki, yad torpaqlarda ona heç vaxt aman olmayacaq, Azərbaycan ərazisi işğalçılara gec-tez məzar olacaq.

Başqa yandan, siyasi ekspertlərə görə, qərbyönlü Paşinyan hökuməti gec-tez Moskvanın qəzəbinə gələcək və o zaman Kreml Ermənistanı cəzalandırmaqdan ötrü Bakıya müvəqqəti də olsa, "yaşıl işıq" yandıra bilər.

*****

"Demək olmaz ki, təmas xəttindəki vəziyyət əvvəlkindən güclü şəkildə fərqlənmir. Azərbaycan ön xətdə hərbi qüvvələrin yerdəyişməsini davam etdirir". "Yeni Müsavat"ın məlumatına görə, bunu Ermənistanın Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan AzadlıqRadiosuna açıqlamasında işğalçı ölkənin baş naziri və prezidentinin Qarabağa qanunsuz səfərlərini və münaqişə zonasındakı son durumu şərh edərkən bildirib.

"Biz Azərbaycan ordusunun hərəkətlənməsini diqqətlə izləyirik ki, situasiyanın kəskinləşməsinə imkan verməyək. Bütövlükdə deyə bilərəm ki, gərginlik bir qədər artıb, bizim problemlərimiz var", - deyə erməni rəsmisi təlaşını gizlətməyib.

Bu açıqlama bir daha düşmən tərəfdə müharibədən dolayı narahatlığı aydın şəkildə büruzə verir. Artıq neçə gündür işğalçı ölkənin mediası, hərbi və siyasi ekspertlər Azərbaycan ordusunun cəbhə xəttinə yeni qüvvələr cəm eləməsi haqda yazır. Gələn xəbərlərə görə, Azərbaycanın həmsərhəd zonada yeni raket-artilleriya birləşməsi yaratması düşmənin yuxusunu daha da artırıb.

Əlbəttə ki, Azərbaycan öz torpaqlarını işğaldan azad eləmək üçün öz ərazisində istədiyi hərəkəti eləməyə, o sırada yeni hərbi strukturlar və birləşmələr yaratmaq, hərbi birləşmələrin uğurlu dislokasiyasını təmin eləmək haqqına sahibdir. İrəvan bu situasiyadan narahatdırsa, böyük müharibə arzulamırsa, o zaman çıxış yolu bəlli: işğal altındakı əraziləri qeyd-şərtsiz azad eləməyə başlasın.

İlkin mərhələdə bu, Dağlıq Qarabağ ətrafındakı 5 rayon ola bilər. Bunun ardınca Ermənistanın Türkiyə və Azərbaycan tərəfdən nəqliyyat- kommunikasiya blokadası götürülə, o, regiondakı böyük inteqrasiya proseslərinə qoşula bilər. Paşinyanın öz xalqına verdiyi və reallaşması mümkün olmayan boş vədləri ilə müqayisədə, bu, erməni xalqını rifaha qovuşduracaq ən real və optimal yoldur.



## Azərbaycanlı və erməni gənclərin təmsil olunduğu sülh platforması təqdim olunub

**Tiflisdə "Yeni Nəsil Sülh Naminə" beynəlxalq platformasının təqdimat mərasimi keçirilib (APA). Platformanın yaradılmasında məqsəd bölgədə və dünyada sülhün bərqərar olması üçün gənclərin bir araya gətirilməsidir. Platformaya gürcü, azərbaycanlı, erməni, eləcə də Almaniya, Danimarka və digər Avropa ölkələrinin gəncləri qoşulub.**

Tədbirdə çıxış edən Gürcüstan gənclərinin nümayəndəsi Giorgi Tumasyan sülh platformasının yaradılmasını tarixi hadisə adlandırıb: "Cənubi Qafqazda sülhün yaradılması və saxlanılması üçün gənclər milli və etnik mənsubiyyətindən asılı olmayaraq birləşməlidirlər. Gürcüstanda Ermənistanla sərhədə yaxın yerləşən Tsopi kəndində əsrlərdir etnik erməni və azərbaycanlılar sülh şəraitində yaşayırlar. Bu, bölgədə sülhün mümkün olduğunu göstərir".

Daha sonra gürcü, azərbaycanlı və erməni gənclərinin nümayəndələri çıxış edərək yeni nəslin sülh şəraitində yaşamaq istədiyini və bu istiqamətdəki bütün təşəbbüsləri dəstəkləməyə hazır olduğunu qeyd ediblər. Sonda "Yeni Nəsil Sülh Naminə" platformasının manifesti imzalanıb. Gənclər sənədə imza ataraq Qafqazda və dünyada sülh uğrunda milli, regional və beynəlxalq əməkdaşlığa hazır olduqlarını ifadə ediblər. Manifestdə qeyd olunub ki, gənclər münaqişə tərəfləri arasında etimadın bərpa olunması prosesinə təsir edə bilər və etməlidirlər.

Tədbirdə gürcü politoloqlar, Avropanın gənclər təşkilatları, diplomatik korpusun nümayəndələri də iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 133 (7022) 22 iyun 2018

**Əmlak Məsələləri Dövlət Komitəsi ölkədə torpaq qanunvericiliyinin tələbləri pozulmaqla yaradılan süni balıq göllərinin monitorinqini aparıb, 147 süni göl ləğv edilib. Nəticədə 100 hektarlarla torpaq sahəsi əvvəlki vəziyyətinə qaytarılıb.**



# Oliqarxların süni balıq gölləri ləğv edildi-milyonluq ziyan

## Vaxtilə əkin üçün münbit olan ərazilər süni balıq göllərindən tam təmizlənəcək

Bu barədə virtualaz.org-a komitənin mətbuat xidmətindən məlumat verilib. Məlumata görə, komitə ümumilikdə 529 balıq gölü müəyyən edib və onlar barəsində məlumat bankı yaradılıb.

Azərbaycan Respublikasının Torpaq Məcəlləsinə əsasən, kənd təsərrüfatı yerləri xüsusi olaraq qorunur və bu torpaqların qeyri-kənd təsərrüfatı məqsədilə digər kateqoriyalara keçirilməsinə müstəsna hallarda, məcəllədə və digər qanunvericilik aktlarında müəyyən edilmiş qaydada yol verilir.

Lakin torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarəti qaydasında aparılan monitorinqlər və araşdırmalar zamanı müəyyən edilib ki, kənd təsərrüfatı təyinatlı torpaq sahələrində Azərbaycan Respublikasının torpaq və su qanunvericiliyinin tələbləri pozulmaqla balıqçılıq təsərrüfatı məqsədilə süni sututarlar (gölməçələr) yaradılır. Həmin gölməçələrin əksəriyyətindən uzun illərdir ki, balıq yetişdirilməsi və ovlanması üçün istifadə edilir. Nəticədə həmin gölməçələrin ərazilərinə aid torpaq sahələrinin münbit qatı bilavasitə korlanmaqla yanaşı, ətraf ərazilərdə qrunt suyunun səviyyəsinin qalxması nəticəsində yüzlərlə hektar kənd təsərrüfatı təyinatlı torpaq sahələri şorlaşmaya məruz qalır.

Monitorinqlər nəticəsində mövcud torpaq qanunvericiliyi pozulmaqla yaradılmış 147 süni göl ləğv edilib. Nəticədə 100 hektarlarla torpaq sahəsi əvvəlki vəziyyətinə qaytarılıb.

"Hazırda 382 təbii və süni göl fəaliyyət göstərir. Bu göllərin əksəriyyəti kənd təsərrüfatı təyinatlı torpaq sahələrində, o cümlədən dövlət fondu qış otlaq sahələrində yaradılıb. Bunlardan 33-ü təbii, 349-u isə süni balıq gölləridir. Süni balıq göllərindən 14-ü meşə fondu torpaqlarında, 37-si su fondunda, 298-i isə kənd təsərrüfatı təyinatlı torpaqlarda yaradılıb. Təyinatına uyğun olmayan torpaq sahələrində mövcud olan 188 hal barədə inzibati protokol tərtib edilərək 85 000 manat cərimə yazılıb. 25 balıq gölünün fəaliyyətində torpaq sahəsinin özbaşına zəbt olunması halları olduğundan tərtib olunmuş sənədlər tədbir görülməsi üçün hüquq-mühafizə orqanlarına göndərilib. Hazırda 45 gölün fəaliyyətinin araşdırmaları davam etdirilir", - deyə məlumatda bildirilir.

Monitorinqlər zamanı balıq göllərinin əsasən dövlət ehtiyat fondu, qış otlaqları, bələdiyyənin örüş torpaqlarında və vətəndaşların pay torpaqlarında yaradıldığı məlum olub. Süni göllərin ən çox Neftçala, Salyan, Biləsuvar, Sabirabad rayonlarında yaradılması aşkar edilib.

Dövlət Komitəsi bildirir ki, balıq gölü yaradılması üçün torpaq ayrılması barədə müraciətlər daxil olduqda yalnız təyinatı üzrə nəzərdə tutulmuş torpaqlar üçün müvafiq rəy verilir.

**"Yeni Müsavat" xatırladır ki, süni göllərlə bağlı məsələ kənd təsərrüfatı üçün yararlı torpaq sahələrinin başqa məqsədlərlə istifadəsinin dayandırılması və yenidən əkin fonduna qaytarılması siyasəti çərçivəsində gündəmə gəlib.** Gözlənilir ki, ləğv edilmiş balıqçılıq təsərrüfatların tutduğu ərazilər əkin fonduna veriləcək. Salyan və Neftçala rayon icra hakimiyyətlərinin başçıları bununla bağlı xüsusi tapşırıq verildiyi də deyilirdi. Vaxtilə Salyanın Kürsəngi, Xıdırlı, Varlı, Uluxanlı, Qarabağlı, Xalac, Kərimbəyli, Qaraçala və digər inzibati ərazilərində SSRİ dövründə "ağ qızılı" ilə tanınan və 1990-cı illərə qədər becərilən əkin sahələri zəbt edilib. Bu ərazilərdə ayrı-ayrı məmurlara məxsus süni balıq gölləri yaradılıb, otlaq sahələri və istixanalar salınıb. Aydındır ki, bu proses balıq biznesinə külli miqdarda para yatırmış oliqarxlar həm də xeyli ziyana salacaq. Amma onlar illərdir ki, bu sahədə milyonlar qazandığını da unutmayaq.

❑ **"YM"**

# Bakının köhnə "xruşşovkalar" problemi

## Müasir normalara cavab verməyən beşmərtəbələrin sökülməsi niyə yubanır?

**Artıq bir müddətdir ki, paytaxt Bakının abadlaşdırılması məqsədi ilə pilot layihələr həyata keçirilir. Belə ki, Nazirlər Kabinetinin "Bakı şəhərinin Suraxanı, Nəsimi, Xətai, Nərimanov, Nizami, Yasamal, Səbayel, Pirallahı, Xəzər rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər barədə" 25 fevral 2016-cı il tarixli qərara əsasən adları qeyd olunan rayonların ərazisində abadlıq-quruculuq işlərinin davam etdirilməsi, qəzalı vəziyyətdə olan binaların sökülərək, yerində müasir tələblərə uyğun yenilərinin tikilməsi və qəzalı vəziyyətdə olan binalarda yaşayan sakinlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədi ilə rayon icra hakimiyyətlərinə yaxın 5 il müddətində bir sıra işlərin həyata keçirilməsi tapşırılıb.**



Pilot layihələrə əsasən Suraxanı rayonunda 63, Nəsimi rayonunda 226, Xətai rayonunda 99, Nərimanov rayonunda 219, Nizami rayonunda 131, Yasamal rayonunda 18, Səbayel rayonunda 41, Pirallahı rayonunda 297 ev sökülməlidir.

Artıq bir ildir ki, proses başladılıb və bu günə qədər 30-dan çox "xruşovka" tipli binalar sökülüb. Sakinlər isə qərara əsasən müvəqqəti olaraq tikinti şirkətinin vəsaiti hesabına tutulan kirayə mənzillərə yerləşdirilir. Bu məqamda qeyd edək ki, sakinlər təhvil verdikləri mənzilə görə təzminat ala və ya yeni mənzilə köçməyə razılaşa bilər, amma onun sahəsi vətəndaşların köçdükləri mənzilin sahəsindən ən az 10 faiz çox olmalıdır.

Xatırladaq ki, "xruşovka" deyilən binalar sovet dövründə, təxminən 60-cı illərdə, Nikira Xruşovun dövründə tikilib. Kiçik mətbəxi, alçaq tavanı olan bu binalar əsasən insanların kommunal mənzil və zirzəmilərin dözülməz şəraitindən xilas olması üçün inşa edilirdi. Lakin bu gün artıq "xruşovka"lar müasir normalara cavab verə bilmir. Bakıda "xruşovka"ların sayı dəqiq bilinmir. Çünki bu tipdə olan "stalinka", "Kiyev", "Minsk", "Leninqrad" layihələri binalar çoxdur və onların hamısı ümumi şəkildə köhnə tikili hesab olunur.

Yuxarıda da qeyd etdiyimiz kimi, ötən ildən başlayaraq "xruşovka" binalar sökülməyə başlayıb. Lakin ekspertlər də qeyd edir ki, son zamanlar onların söküntüsündə yubanmalar var. Bəs səbəb nədir?

Mövzu ilə bağlı daşınmaz əmlak sahəsi üzrə ekspert Nüsrət İbrahimov "Yeni Müsavat"a danışıb: "Hazırda Nərimanov, Nəsimi, Səbayel, Yasamal rayonlarında söküntü və tikinti işləri aparılır, bu proses davam etdirilir. Lakin bəzi binaların sökülməsində yubanmalar var. Düşünürəm ki, bu həmin şirkətlərin maliyyə məsələləri ilə bağlıdır. Çünki maliyyə dayaqları olmayan tikinti şirkətləri bu işə girir və gecikmələr yaranır. Hesab edirəm ki, bu problem yaxın günlərdə aradan qaldırılacaq".

Ekspert köhnə binaların sökülməsini dəstəklədiyini vurğulayıb:

"Ümumiyyətlə köhnə binaların sökülməsi məsələni dəstəkləyirəm. Çünki tikinti hər bir yaşayış məntəqəsinin yaşaması inkişaf etməsi deməkdir. Digər tərəfdən tikinti həm də iqtisadiyyatın lokomotivi deməkdir. Tikinti gedirsə, deməli 30-a yaxın sahələri özü ilə dartır, insanlar işləyir, qazanc əldə edirlər. Həmçinin insanların yaşayış səviyyəsi dəyişir, köhnə evlərdən xilas olur, yeni müasir evlərlə təmin olunurlar. Yəni, bu iş alqışa layiqdir, bir şərtlə ki, tikinti şəhərsalma qaydaların uyğun aparılsın və vətəndaşlar bu işdə incidilməsin".

❑ **Xalìdə GƏRAY,**
**Musavat.com**

# Dövlət xarici kreditləri hara və necə xərcləyir...

## Ekspert: "Həm borclanma, həm də xərcləmə üzərində nəzarət mexanizmləri zəifdir"




**Türkiyədə seçkiqabağı müzakirələrin əsas mövzularından biri dövlət xətti ilə xaricdən alınan kreditlərin xərclənmə istiqamətləridir. Müxalif namizədlər prezident Ərdoğanı alınan kreditləri istehsal sahəsinə deyil, tikinti-təmir işlərinə yönəltməkdə ittiham edirlər.**

Qardaş ölkədəki bu müzakirələr istər-istəməz diqqəti Azərbaycana yönəldir. Görəsən, bizdə dövlət borcu olaraq götürülən kreditlər hansı sahələrə yönəldilir?

Rəsmi açıqlamalardan aydın olur ki, Azərbaycanda götürülən kreditlərin 60 faizdən yuxarısı infrastruktur (avtomobil yollarının, dəmir yolunun çəkilməsi, yeni enerji güclərinin yaradılması, su təchizatı, enerji təchizatı və sair) layihələrə sərf olunur. İqtisadiyyat və maliyyə, kənd təsərrüfatı və meliorasiya layihələrinə alınan kreditlərin 3-4 faizi yönəldilir.

Onu da qeyd edək ki, 01 yanvar 2018-ci il tarixinə Azərbaycan Respublikasının xarici dövlət borcu 9 milyard 398,3 milyon ABŞ dolları (15 milyard 978,1 milyon manat) olub.

Maliyyə Nazirliyindən verilən məlumata görə, xarici dövlət borcunun Ümumi Daxili Məhsula (ÜDM) olan nisbəti 22,8 faiz təşkil edib.

Xarici dövlət borcu beynəlxalq maliyyə institutlarından infrastruktur layihələri və maliyyələşmə proqramları üçün cəlb edilmiş kreditlərdən, həmçinin beynəlxalq maliyyə bazarlarında yerləşdirilmiş qiymətli kağızlardan ibarətdir.

**İqtisadçı-ekspert Rəşad Həsənovun dediyinə görə, Azərbaycanda dövlət zəmanəti ilə alınan kreditlərin böyük əksəriyyəti iri dövlət qurumlarının xətti ilə alınanlardır:** "Bunlar da daha çox infrastruktura yönəlib. Dövlət Dəmir Yolundan tutmuş, "Azərenerji", "Azərişıq", "Azərsu", AZAL və digərlərinədək, əksər iri dövlət müəssisələri üçün böyük məbləğdə kreditlər götürülüb. Bu kreditlər Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Beynəlxalq Valyuta Fondu, Asiya İnkişaf Bankı və digər maliyyə qurumlarından alınıb. Bu sahədə problemlərdən biri budur ki, krediti götürən qurumlar əksər hallarda onları qaytara bilmirlər, bu üzdən də yük düşür büdcənin üzərinə. Ötən il hətta Maliyyə Nazirliyi tərəfindən dövlət zəmanəti ilə kredit alınmasına məhdudiyyət tətbiq olunacağına dair açıqlama da verilmişdi. Alınan kreditlərin büdcə hesabına qaytarılması sosial layihələrə vəsait yönəldilməsi imkanlarını daraldır".

**Ekspertin sözlərinə görə, xarici kreditlərlə bağlı daha bir ciddi məsələ vəsaitlərin qeyri-şəffaf xərclənməsi, təyinatından uzaqlaşdırılmasıdır:** "Yəni həm borclanma, həm də xərcləmə üzərində nəzarət mexanizmləri zəifdir. Bu proseslərdə şəffaflıq təmin olunmadığı üçün alınan kreditlərin səmərəli xərcləndiyini söyləmək qeyri-mümkündür. Nəzarət orqanları institutlaşa bilmir, bu isə vəsaitlərin korrupsiya predmetinə çevrilməsinə səbəb olur. Belə qeyri-səmərəli xərclənmənin bariz nümunəsi Bakı-Quba yoludur. Bir neçə il əvvəl o yol xarici kreditlər hesabına inşa olunmuşdu, 30 il də təminat verilmişdi. Amma indi tamamən sökülərək yenidən çəkilməsinə başlanıb".

**R.Həsənovun fikrincə, dövlət xətti ilə götürülən kreditlərin əksəriyyətinin infrastruktur layihələrinə yönəldilməsi təbiidir:** "Dövlətin işi iqtisadiyyatın, biznesin inkişafı üçün əlverişli infrastrukturun yaradılmasıdır - su, qaz, işıq, yol təchizatı və sair. Buna görə də dövlət xətti ilə alınan kreditlərin bu təminatlara yönəlməsi təbiidir. Burada əsas problem alınan kreditlərin qeyri-şəffaf xərclənməsi, korrupsiya predmeti olması, təyinatından yayındırılmasıdır. Təəssüflər olsun ki, bir sıra xarici qurumlar kredit ayırarkən onun qaytarılması imkanlarına daha çox diqqət edirlər, nəinki şəffaf və təyinatı üzrə xərclənməsinə. Düşünürəm ki, əsas problem bu sahədəki sistemlə bağlıdır. Bir sıra maliyyə qurumları yerli banklara özəl sektorun dəstəklənməsi, aqrar sahənin inkişafı məqsədilə vəsaitlər ayırıblar. Bu kreditlərin bir qismi də Beynəlxalq Bank vasitəsilə, dövlət zəmanəti əsasında ayrılıb. Lakin təəssüflər olsun ki, milyardlarla dollar vəsait əsasında yaradılan istehsal müəssisələrinin bir çoxu düzgün hesablamalar aparılmadan yaradılıb. İndi onların əksəriyyəti fəaliyyətini dayandırıb, dövlət onları sağlamlaşdırmaq niyyətindədir. Borclar isə yenə dövlət büdcəsi hesabına qaytarılacaq".

❑ **Dünya SAKÌT,**
**"Yenì Müsavat"**

# Günün əsas oyunu:





# Braziliya komanda deyil, Neymar isə...

## Braziliya millisi bu gün Kosta-Rikaya qalib gələ bilməsə...

**Bu gün dünya çempionatında E və D qruplarında ikinci turun oyunlarına yekun vurulacaq. Saat 16:00-da Braziliya - Kosta-Rika (E qrupu) milliləri üz-üzə gələcək.**

Saat 19:00-da D qrupunun iki komandası-Nigeriya və İslandiya matçı başlayacaq. 22:00-da Serbiya - İsveçrə (E qrupu) oyununun startı veriləcək.

**Neymarın saçı və oyunu...**

Braziliya ilk turda İsveçrə ilə qarşılaşıb və oyun 1:1 hesablı bərabərliklə yekunlaşıb. Hələ bu oyun ərəfəsi yazmışdıq ki, dünya çempionluğuna əsas iddialı komandalardan olan Braziliyanın hazırlıq səviyyəsi haqda bəzi narahatlıqlar var.

Braziliya təsnifat mərhələsində yaxşı nəticə göstərib, 10 görüşdə qalib gəlib, 2 oyunda heç-heçə edərək mundiala 21-ci dəfə vəsiqəni təmin edib. Amma Braziliya ev sahibi olduğu ötən mundialda istənilən səviyyədə çıxış etmədi və nəticədə çempionluq arzusu ürəyində qaldı. Həm Pele, həm Maradona vaxtilə oynadıqları milli komandalar haqda tənqidi danışanda ağız büzənlər çox olur. “Qərəzlidirlər”, “paxıldırlar”, hətta “dəlidirlər” deyirlər. Pele son olaraq Braziliyalının komanda oyununu itirdiyini demişdi, səhvmi demişdi bu qara kişi? Hanı 1982-ci il İspaniya çempionatının Braziliyası? Məni qınamayın, o vaxt ulduz futbolçuların belə bir kişiyana ağırlığı, zəhmi, futbolçu görünüşü vardı. İndi bu dünyanın üç ən bahalı futbolçularından biri olan Neymar İsveçrə ilə oyunda vermişelə oxşayan saçını göstərməyə çıxmışdı, yoxsa oynamağa? Mən oynaya bildiyini görmədim, yəni Braziliya milisinə yaraşan, PSJ-nin verdiyi 222 milyon avroya dəyən oyun yox idi. Azərbaycanda buna “bir qəpiklik oynamadı” deyirlər...

Braziliya haqda “oyunçuları hər biri ayrılıqda ustadırlar, amma komanda oyunu yoxdur” deyən Peleyə niyə qərəzli deyək? Paulinyo, Koutinyo (yeganə qolu o vurdu), Villian və Fernandinyo... Daha kimlər var bu dünyanın ən çox çempion olan komandasında. Daha kim lazımdır bunlara ki, baxımlı oyun göstərsinlər?

İsveçrə Braziliya ilə oyunda öz gücündə oynadı və son hesab ədalətlidir.

Braziliya bu gün ilk turda Serbiyaya minimal hesabla uduzan Kosta-Rikanın da güclü müqaviməti ilə üzləşəcək. Doğrudur, ötən mundialda səs-küy yaratmış Kosta-Rika millisi ilk oyunda gözlənilən kimi güclü hücum futbolu göstərmədi. Kosta-Rika millisinin əsas silahının qapıçı Keylor Navas olduğu Serbiya ilə oyunda təsdiqləndi. Əgər o, qapıda olmasaydı, hesab fərqli ola bilərdi.





Bu iki milli bir-birilərinin oyununa yaxşı bələddirlər. İndiyədək bu komandalar 11 dəfə üz-üzə gəliblər. İlk oyun 1956-cı ildə Panamerika Oyunlarına təsadüf edib. Həmin qarşılaşmada Braziliya 7:1 qalib gəlib. İndiyədək keçirilən görüşlərdə 10 oyunda Kosta-Rika məğlub olub. Yalnız bir dəfə qələbəni Kosta-Rika bayram edib. Sonuncu dəfə isə millilər 2015-ci ildə yoldaşlıq görüşündə güclərini sınayıblar. Kosta-Rika həmin qarşılaşmada minimal hesabla məğlub olub.

FİFA reytinqində Kosta-Rika 23-cü, Braziliya isə 2-ci yerdə qərarlaşıb. Bukmeykerlər Braziliyanın qələbəsinə stavka edir. Braziliyanın zatən qələbədən başqa çarəsi də yoxdur...

**Nigeriya “ölüm qrupu”nu tərk edə bilər**

Nigeriya və İslandiya matçı da “ölüm qrupu”nda vəziyyətə aydınlıq gətirməlidir. İslandiya ilk oyunda Argentinaya ciddi müqavimət göstərdi və haqq etdikləri 1 xalı qazandılar. Nigeriya isə Xorvatiya qarşısında çox aciz göründü və 0:2 məğlub oldu. İslandiya bu turda qalib gəlməyə çalışacaq, çünki heç-heçə onların işini zora soxa bilər. Nigeriya isə məlum, onlar da qələbəyə oynamalıdırlar. Qeyd edək ki, bu komandalar yalnız bir dəfə -1980-ci ildə yoldaşlıq görüşündə qarşılaşıblar. Həmin oyunda İslandiya 3:0 hesabı ilə qalib gəlib.

Mundialda ilk dəfə iştirak etməklərinə baxmayaraq, son Avropa çempionatındakı təcrübələri İslandiyanın xeyrinə işləyib. İslandiya seçmə mərhələdə son turda rəqibləri olacaq Xorvatiyanı da üstələyib. Qrupda 10 oyunun 7-də qələbə qazanan İslandiya millisi baş məşqçisi Heymir Hadlqrimssonun rəhbərliyi ilə inkişafdadır. Braziliya ilə ədalətli bərabərlik nəticəsi hər şeyi deyir. Oyunçularının adı “son”la qurtaran bu milli komandanın mundialda çox komandanın sonunu gətirə biləcəyi barədə ötən yazılarımızda “xəbərdarlıq” etmişdik...

Seçmə mərhələdə Nigeriya Afrika qitəsindən Rusiyaya ilk vəsiqəni qazanan komanda olsa da, ilk oyunda heç nə ilə yadda qalmadı. Nigeriya belə komandadır, gah güclənir, gah zəifləyir. Belə ki, 1994 və 1998 mundiallarında baxımlı oyun göstərən Afrika təmsilçiləri böyük idman arenasına bir də 2014-də qayıda bildilər... Buna baxmayaraq soyuq və isti ölkə təmsilçilərin qarşılaşması bizə maraqlı oyun vəd edir.

**Serbiyaya heç-heçə də sərf edir, İsveçrə isə...**

Saat 22:00-da başlayacaq Serbiya - İsveçrə qarşılaşması da maraqlı olmalıdır. Serblər ilk oyunda minimal hesabla qalib gələrək “pley-off”a ümidlənirlər. İsveçrə də Braziliyadan qopardığı xaldan çox ümidlənib. Yada salaq ki, bu, komandaların ilk qarşılaşmasıdır.

Serbiya ilk dəfə mundialda iştirakçı olsa da, seçmə mərhələdə uğurlu çıxış edib. Keçirdiyi 10 oyunun 6-da qalib gələn Serbiya millisi cəmi bir oyunda məğlub oldu. Son nəticədə 21 xal toplayaraq qrup lideri oldu.

Mladen Krstaiçin yetirmələrinin ilk oyunda qələbə qazanmaları artıq onlar üçün uğur deməkdir, amma davamını gətirmək də istəyəcəklər. Bu gecə onlara heç-heçə də qane edir. Serbiyanın heyətində də Nemanya Matiç (“Mançester Yunayted”), Aleksandr Mitroviç (“Fulhem”), Aleksandr Priyoviç (PAOK), Luka Yoviç (“Ayntraxt”) kimi hücumçular var.

İsveçrə millisi komandanın baş məşqçisi Vladimir Petkoviçin sayəsində 2016-cı il Avropa çempionatından sonra mundiala da vəsiqəni təmin edib. Bosniyalı baş məşqçi bu çempionatda da xüsusilə müdafiə xəttini gücləndirməsi sayəsində daha yaxşı nəticə göstərməyi qarşısına məqsəd qoyub ki, bu da ilk oyunda nəzərə çarpdı. Görüş gərgin mübarizə vəd edir və hər iki komandanın qalib gəlmək şansı var.





❑ **Nazim SABİROĞLU,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 133 (7022) 22 iyun 2018

# İcbari tibbi sığortanı yubadan səbəblər

## Azər Mehtiyev: "Belə islahatlar dəqiq strategiyalar əsasında həyata keçirilir"

**Azərbaycanda icbari tibbi sığortanın bütün ölkə ərazisində tətbiqi, belə görünür ki, yenə yubanacaq. Hansı ki, səhiyyə sistemində tamamilə yeni maliyyələşmə və xidmət formasının tətbiqini nəzərdə tutan icbari tibbi sığortanı ölkə əhalisi səbirsizliklə gözləməkdədir.**



Xatırladaq ki, icbari tibbi sığortanın pilot rayonlar olan Mingəçevir də Yevlaxda tətbiqinə 2017-ci ilin yanvarından başlanıb. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin məlumatına görə, pilot layihə çərçivəsində 480 ambulator, 677 stasionar, 18 ilkin səhiyyə, 6 təcili və təxirəsalınmaz, 23 fizioterapevtik olmaqla 1829 sayda tibbi xidmət baza zərfinə daxil edilib. Həmçinin 459 laborator müayinə və 166 həyati vacib dəyəri yüksək tibbi xidmətlərə də təminat verilib.

Agentliyin bildirdiyinə görə, pilot layihə müddətində səhiyyə xərclərinin maliyyələşməsinə çəkilən xərclərin təhlili göstərir ki, pilot ərazilərdə adambaşına düşən səhiyyə xərci kapital qoyuluşlar nəzərə alınmaqla 114 manat, böyük kapital qoyuluşlar nəzərə alınmamaqla 93 manat civarında təşkil edir.

Ümumilikdə 2017-ci il ərzində pilot layihə çərçivəsində səhiyyə xərclərinin maliyyələşdirilməsinə 26 252,60 min manat vəsait sərf edilib.

Əslində icbari tibbi sığortanın bu ildən bütün ölkədə tətbiq olunacağı nəzərdə tutulurdu. Lakin cari ilin büdcə layihəsi müzakirə olunarkən maliyyə naziri Samir Şərifov bu ildən əlavə olaraq 2 rayonda yeni sistemin tətbiqinə başlanacağını bildirmişdi. Hələlik yalnız Ağdaş rayonu icbari tibbi sığortanın tətbiq edildiyi pilot layihələr sırasına daxil edilib. Hökumət indi də icbari tibbi sığortanın ölkəni tam əhatə etməsi müddəti olaraq 2019-cu ili göstərir.

**Milli Məclisin deputatı, Səhiyyə komitəsinin üzvü Musa Quliyev isə bu günlərdə mətbuata verdiyi açıqlmada icbari tibbi sığortanın gələn il bütün ölkədə tətbiq olunmasının tərəfdarı olmadığını deyib. Onun fikrincə, layihənin tam oturuşması üçün daha bir il lazımdır:** "Modelin oturuşması üçün müəyyən təcrübəni toplamaq və ortaya çıxan nöqsanları aradan qaldırmaq lazımdır. Gələn il bütün ölkə üzrə icbari tibbi sığortaya keçilməsini real saymıram. Bunu həddən artıq cəsarətli və riskli addım hesab edirəm. Dünyada 5 ildən tez bu modelin ölkə ərazisində tətbiq olunması təcrübəsi və elə uğurlu nəticə də yoxdur. Agentlik tərəfindən kifayət qədər işlər görülüb, amma gələn il təcrübəni artırmaq daha yaxşı olar. Fikrimcə, icbari tibbi sığortanın tətbiq olunduğu regionları genişləndirmək olar və ya böyük şəhərdə də bu təcrübəni həyata keçirə bilərik".




**Deputat bildirib ki, icbari tibbi sığortanın bütövlükdə ölkədə tətbiqi üçün bir sıra dəyişikliklər edilməlidir:** "Qanunvericilikdə dəyişiklik etmək lazımdır, vəsaitin toplanması mexanizmləri olmalıdır. Yəni sosial sığorta ayırmalarına nə qədər vəsaitin verilməsi araşdırılmalıdır. İşləyən insanların reyestri aparılmalı, kənddə yaşayan insanların sığorta haqlarının necə olması, sistemi idarə edən kadrların ölkədə kifayət qədər olub-olmaması müəyyənləşdirilməlidir. Böyük bir işdir və səhiyyə sistemi tamamilə dəyişəcək. Burada Səhiyyə Nazirliyinin, agentliyin rolu və vəzifəsinin nədən ibarət olması bilinməlidir".

**Baş nazirin müavini Əli Əhmədov isə bildirib ki, vətəndaşlar icbari tibbi sığortanın həyata keçirilməsində iştirak edəcəklər. Belə ki, işləyən vətəndaşlar əməkhaqlarından müəyyən faizlər ödəyəcək, işləməyən, bizneslə məşğul olan vətəndaşlar isə müəyyənləşdirilmiş dərəcədə tibbi sığortaya töhfələrini verəcəklər:** "Amma bəzi kateqoriyalar, məsələn, pensiyaçılar, uşaqlar, əlillər icbari tibbi sığorta haqqını ödəməkdən azad olacaqlar. Dövlət bu vəzifəni öz üzərinə götürəcək. Çalışacağıq ki, ilkin və sonrakı mərhələdə icbari tibbi sığorta haqqı insanlarımız üçün ağır yük olmasın. Eyni zamanda çalışmaq lazımdır ki, icbari tibbi sığorta real tibbi xidmətləri göstərmək qüdrətində olsun. Bax, bu iki nöqtə uzlaşmalıdır.

Bu barədə hazırda hesablama işləri aparılır, Maliyyə Nazirliyi, İcbari Tibbi Sığorta Agentliyi ciddi surətdə bu məsələnin üzərində işləyir. Güman edirəm ki, bir neçə aydan sonra bütün sənədlər hazır olacaq".

**İqtisadçı-alim, İqtisadi Təşəbbüslərə Yardım Mərkəzinin rəhbəri Azər Mehtiyev isə deyir ki, icbari tibbi sığorta kimi çox ciddi və ictimai yükü olan bir islahatın həyata keçirilməsi dəqiq hədəflərin müəyyənləşdiyi strategiya əsasında reallaşmalıdır:** "Dövlətin dəqiq strategiyası olmalıdır ki, bu islahatı niyə həyata keçirmək istəyir, bunu hansı müddətdə, hansı ardıcıllıqla reallaşdıracaq. Belə bir strategiyanın olması, ictimaiyyətə açıqlanması insanlarda islahata inam yaradır. Amma Azərbaycanda icbari tibbi sığorta ilə bağlı hələ də qeyri-müəyyənlik var. Bildiyiniz kimi, icbari tibbi sığortanın tətbiqi ilə bağlı ilk prezident fərmanı 2007-ci ildə imzalanmışdı, 2008-ci ildə hüquqi-normativ bazanın hazırlanması üçün müəyyən işlər görüldü. Lakin agentliyin formalaşdırılması 7-8 il yubandı. Halbuki o zaman icbari tibbi sığortanın 2012-ci ilədək bütün ölkə ərazisində tətbiq olunması nəzərdə tutulurdu. İndi də 2017-ci ildən pilot rayonlarda başlanıb, guya bu ildən bütün ölkədə tətbiq olunacaqdı, amma reallaşmadı".

**A.Mehtiyevin sözlərinə görə, pilot rayonlarda tətbiq olunan tibbi sığortanın nəticələrinə dair cəmiyyətə normal məlumat verilmir:** "Bilinmir ki, hansı uğurlu nəticələr əldə olunub, hansı problemlər qeydə alınıb və onların həlli üçün hansı addımların atılması nəzərdə tutulur. Pilot bölgələrdən ziddiyyətli məlumatlar var, xüsusilə həkimlər arasında narazılıqlar var".

**İqtisadçı-alim deyir ki, yeni sistemin mərhələ-mərhələ tətbiqi normaldır:** "Bu, doğrudan da 4-5 il ərzində oturuşacaq bir sistemdir. Lakin bu o demək deyil ki, ildə cəmi bir rayon əlavə olunsun. Bu gedişlə biz 50-60 ilə bütün ölkə ərazisini əhatə edə bilərik. Belə proseslərdə 5-10 il yubanma uğursuzluğa gətirib çıxarır. Digər tərəfdən, əhalinin bütün təbəqələrinin həyatına təsiri olacaq bu sistemin tətbiqi geniş ictimai iştirakçılıq şəraitində həyata keçirilməlidir. Uğur və uğursuzluqlar ictimai müzakirəyə təqdim edilməlidir. Düşünürəm ki, pilot rayonlar sırasına yalnız 1 rayonun əlavə edilməsi ya icbari tibbi sığortanın tətbiqində uğursuzluğa düçar olunduğunu, ya da hökumətin bunu bütün ölkə ərazisinə tətbiq etmək niyyətində olmadığını göstərir".

**Dünya SAKİT,**
**"Yeni Müsavat"**

# Məşhur marketin işçiləri arasında bıçaqlaşma: 1 ölü, bir yaralı



**Bakıda məşhur marketin işçiləri arasında yaşanan insident ölümlə nəticələnib.**

Qafqaz.info-nun verdiyi xəbərə görə, iyunun 20-də Sabunçu rayonunun Maştağa qəsəbəsində yerləşən "Araz" marketin yaxınlığında orada satıcı işləyən Zabrat qəsəbə sakini Surxay Əliyev münaqişə zəminində iş yoldaşları, qəsəbə sakinləri Vüqar Hüseynzadəyə və Kənan Səlimova bıçaqla xəsarət yetirib. Çoxsaylı xəsarət almış V.Hüseynzadə hadisə yerində ölüb, K.Səlimov isə xəsarətlə xəstəxanaya yerləşdirilib.

Bakı Şəhər Baş Polis İdarəsinin Cinayət Axtarışı İdarəsi və Sabunçu RPİ 14-cü PB əməkdaşlarının birgə keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində S.Əliyev Bakıxanov qəsəbəsi ərazisində saxlanılıb.

# Bakıda havanın temperaturu daha da yüksələcək



**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamenti bu günə gözlənilən hava proqnozunu açıqlayıb. Lent.az xəbər verir ki, iyunun 22-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin yağmursuz keçəcəyi gözlənilir. Cənub küləyi əsəcək. Havanın temperaturunun Abşeron yarımadasında gecə 20-23, gündüz 29-34, Bakıda gecə 21-23, gündüz 31-33 dərəcə isti olacağı gözlənilir. Atmosfer təzyiqi normadan aşağı 757 mm civə sütunu, nisbi rütubət gecə 60-70, gündüz 35-45 faiz təşkil edəcək.**

Abşeron çimərliklərində iyunun 22-də şimal çimərliklərində (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zağulba) cənub küləyi əsəcək. Dəniz suyunun temperaturu 23-24 dərəcə isti təşkil edəcək. Cənub çimərliklərində (Türkan, Hövsan, Sahil, Şıx) cənub küləyi əsəcək. Dəniz suyunun temperaturu 24-25 dərəcə isti təşkil edəcək.

Azərbaycanın rayonlarında isə iyunun 22-də hava şəraitinin əsasən yağmursuz keçəcəyi, lakin səhər bəzi dağlıq ərazilərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı gözlənilir. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 16-21, gündüz 32-37, dağlarda gecə 10-15, gündüz 18-23 dərəcə isti olacağı gözlənilir.

İyunun 22-də Abşeron yarımadasında iqlim normasına yaxın temperatur rejimi və meteoroloji amillərin normal sutkalıq gedişi gözlənilir ki, bu da meteohəssas insanlar üçün əlverişlidir.

YENİ MÜSAVAT
N 133 (7022) 22 iyun 2018




Cümə söhbətləri

**Bismillahir-Rahmənir-Rahim**

**Allaha həmd-sənalar olsun ki, bizlərə mübarək İlahi təlimi yaşatmaq kimi böyük bir neməti və səadətini nəsib edib. Geridə qoyduğumuz İlahi ziyafət - mübarək Ramazan ayı bu baxımdan xüsusi önəm və əhəmiyyət kəsb edir. Kimlər üçünsə bu, yalnız müəyyən qədər ac və susuz qalmaq dönəmi idi, kimlər üçünsə Uca Yaradana bəndəlik məktəbini keçmək, qəlbin, zehnin, əzaların orucunu tutmaq dönəmi.**

# İnsanın özünü islah etməsinin mərhələləri



Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

Allah Təala bizlərə bu həqiqətləri dərk edib yaşamaq tofiqatını nəsib etsin!

## Özünənəzarətin ilk mərhələləri - müşaritə və müraqibə

Bizlərin həyatında ən əsas diqqət etməli məsələlərdən biri budur ki, insan gərək gün ərzində özünü nəzarətdə saxlamağı bacarsın. Əgər biz bunu etməsək, həyatımızda heç bir irəliləyişə, inkişafa çata bilməyəcəyik.

Özümüzü nəzarətdə saxlamaq üçün əxlaqi dillə desək, müraqibə etmək üçün nəyə nəzarət edəcəyimizi müəyyən etməliyik. Əgər müəyyən etməsək, mücərrəd şəkildə, amorf halda beynimizdə olsa, qarışıq halda düşüncəmizdə saxlasaq, konkretlik olmasa - şeytan (lən) vəsvəsə edəcək, bizi müəyyən məsələləri nəzarət etməyə qoymayacaq, məsələləri bir-birinə qatacaq, növbəti günlərə, aylara saxlamağa vadar edəcək və s.

Bu, gözəl və dəqiq sözdür ki, gün ərzində özümüzlə müraqibə etməliyik. Amma özümüzə nəzarət edəcəyimiz mövzuları gərək öncədən müəyyənləşdirək.

Əxlaq elmində buna müşaritə deyilir. Yəni biz gərək mücərrəd, ümumi, qeyri-müəyyən formada deyil, konkretləşmiş bir halda beynimizdə və daha da yaxşısı - hansısa bir qeydiyyat vasitəsində nəzarət edəcəyimiz məsələləri qeyd edək. Yeməyimiz, yatmağımız, yeriməyimiz, namazlarımızın qılınması, oruclarımız, davranışlarımız, ünsiyyətlərimiz - özümüzlə bağlı hər şeyi müəyyən edək.

Özümüz özümüzlə bir qərardad bağlamalıyıq. Biz başqaları ilə bir şərtləşmə aparmağa, sonradan həmin şərtlərin yerinə yetirilməsinə nəzarət etməyə öyrəşmişik. Sonradan kimin düz, kimin səhv etdiyini yoxlamağı, daha sonra nəticələndirməyi öyrənmişik. Amma mühüm budur ki, biz özümüz özümüzlə bir razılaşma, qərardad bağlayaq. Bu razılaşmanı nəfsimizlə bağlamış olaq. Gün ərzində həyatımızın bütün istiqamət və çalarları ilə bağlı özümüzlə bir razılaşmamız olsun.

Nə gözəl olar ki, insan bunların hamısını öz şərtləşməsində yaza. İlk öncə nəzarət edəcəyi məsələləri müəyyən edə, onlarla bağlı qərarlaşa, sonra isə yaza. Şəhid Mütəhhəri (r.ə) cənabları buyurardı ki, yaxşı olar ki, insan bu razılaşmasına imza da atsın. Bundan sonra isə insanın müraqibəsi başlanır. İnsan nəzarət edir ki, qeyd etdiyi bütün şərtləri həyata keçirtsin.

## Günün yekununda özümüzü hesaba çəkək

Misal üçün, insan qərar verir ki, müəyyən saatdan sonra yemək yeməsin. Baxsın görsün ki, buna riayət edir, ya yox. İbadi məsələlər də bu cürdür. İnsan nəzarət etməli olduğu mövzuları qeyd etməli, sonradan onların yerinə yetirilməsinə müraqib olmalıdır.

Gün ərzində bütün məsələlərə nəzarət etdikdən sonra üçüncü mərhələ başlayır. Bu mərhələ mühasibə mərhələsi adlanır. İnsan nəzarət etdiyi, şərtləşdiyi mövzularla bağlı nəticələndirmə aparmalıdır. Buna qiymətləndirmə mərhələsi də deyilir. Bütün mövzularımızın durumuna nisbətdə bu qiymətləndirməni müəyyən etməliyik.

Yekunda misal üçün, müəyyən məsələ ilə bağlı nəticəyə çatırıq ki, yaxşı olub. Müəyyən olunur ki, bir gün razılaşmamıza əməl etmişik. Əgər razılaşmamıza əməl etmişiksə, Rəbbimizə şükür etməliyik. Şükür etməliyik ki, bir gün Allah istəyən kimi yaşaya bilmişik. Növbəti gün üçün yenə şərtləşməli və beləcə davam etməliyik.

Mühasibə zamanı görsək ki, vəziyyət pisdir, bəzi məsələləri yerinə yetirməmişik - bu zaman iki yolla davranmalıyıq. Əgər şərtləşməmizi az miqyasda pozmuşuqsa, əxlaq ustadları tövsiyə edirlər ki, bu zaman özümüzü danlamaq həddi ilə, qınamaq həddi ilə cəzalandıraq. Buna müatibə deyilir.

Amma əgər aləmi bir-birinə qatmışıqsa, şərtləşmədə olan mövzuları ciddi şəkildə pozmuşuqsa, bu zaman müaqibə yolunu seçməliyik. Əvvəldən özümüz üçün hazırladığımız cəzalar, cərimələr olmalı və şərtlərimizi kobud şəkildə pozduğumuz təqdirdə onları özümüzə tətbiq etməliyik. Cəzalar da yanlış məktəblərdə olduğu kimi fiziki, işgəncəvi xarakterli olmamalıdır. Dinimiz o cür özünü cəzalandırmanı qəti şəkildə qəbul etmir.

Necə cəza? Misal üçün, hansısa şərti pozacağımız təqdirdə əvvəlcədən müəyyən etməliyik ki, özümüzə hansısa məhdudiyyətlər qoyacağıq. Və yaxud müəyyən şərtləri pozacağımız təqdirdə ən çox xoşladığımız təamlardan, qidalardan müəyyən müddətlik imtina edəcəyik. Gərək beləcə qərarlaşaq.

Cəza mexanizmləri qurucu olmalıdır, bizi təkamülə aparan olmalıdır. Dinimiz insanı təkamülə aparmayan heç bir məsələni qəbul etmir. Əlavə oruc, sübh namazından sonra yatmayıb ibadətlə məşğul olma, qəza namazlarını çox qılmaq, münasibəti olmadığı qohum-əqrəbaları ilə sileyh-rəhmi bərpa etmək və s. kimi məsələləri insan özü üçün məcburi işlər qismində müəyyən edə bilər.

İnsanın gündəlik, aylıq, illik müşaritəsi olmalıdır. Bir günü belə boş vermək olmaz. Boş verdiyimiz gündə müraqibə edə bilməyəcəyik.

Bundan sonra gün ərzində müəyyən etdiyi məsələlər üzrə kontrol və nəzarət olmalıdır. Günün sonunda mühüm məsələ - mühasibə gəlir. Bunun da nəticəsində əgər hər şey gözəldirsə, şükür edilməli, əgər vəziyyət yaxşı deyilsə - əvvəlcə qınama, danlama mərhələsi və əgər ciddi pozuntular varsa - müaqibə olmalıdır.

## Ali məqamlı insanlar bu mərhələyə özünü hesaba çəkməklə çatıb

Mərhum Ayətullah Bürucerdi (r.ə) cənabları Bürucerd şəhərində dərs deyərdi. Çox sayda insanlar dərslərinə gələrdi. Bir gün dərs vaxtı bir tələbə əlini qaldırır və sual verir. Ayətullah Bürucerdi (r.ə) cavab verir. Həmin adam bir sual da verir, alim yenə də cavab verir. Üçüncü sualı verəndə Ayətullah Bürucerdi (r.ə) cənabları ondan sakit olmasını xahiş edir.

Həmin insan sakit olur. Dərs bitir, Mərhum Ayətullah Bürucerdi minbərdən düşür, heç kim dağılışmamış həmin tələbənin əlindən öpür, əbasını çıxarıb ona hədiyyə edir və ona bir qədər də hədiyyə verərək, onu halal etməsini xahiş edir. Görünür əhdi var imiş ki, əsəbiləşəcəyi təqdirdə bir il oruc tutacaq. Bu hadisədən sonra bir il oruc tutur və hər iftardan öncə də göz yaşları axıdaraq, Allahdan bağışlanma istəyir.

Biz elə bilirik ki, bu əzizlər birdən-birə gəlir Ayətullah Bürucerdi (r.ə) cənabları olur ki, zamanın şahlarını silkələyirlər. Onlar hər məsələləri, hər mövzularını müşaritə edirlər, müraqibə ediblər, mühasibə ediblər, şükrünü yerinə yetiriblər və lazım olduğu təqdirdə müaqibə ediblər. Təbii ki, bundan sonra fərqli vəziyyətləri əmələ gəlib.

Hər yaşadığımız gün bir fürsətdir ki, əgər belə bir durumumuz yoxdursa, buna başlayaq.

## Qəlbimizi kindən təmizləmə və halallaşma

Bu mətləbləri möhkəm əsaslar üzrə bərqərar etmək üçün praktik əhəmiyyətli üç mühüm tövsiyəyə diqqət edək. Birinci mühüm məsələ budur ki, bizlər qəlbimizdə insanlarla bağlı hər hansı məsələlər varsa, onlarla bağlı halallaşaq. Bir tərəfdən qəlbimizdə qalan məsələləri insanlara bağışlayaq, digər tərəfdən, insanlardan da bağışlanmamızı istəyək. Yəni, necə insan həccə, Kərbəlaya gedəndə, səfərə çıxanda ətrafındakı insanlardan halallıq alır, insan halını gözəlləşdirməyə mane olan ballastlardan qurtulmuş olmalıdır. Həm özümüz insanları bağışlayaq, həm də insanlardan bağışlanma istəyək. Bunu etmək, İlahi nemətləri dərk etmək və bəhrələnmək üçün, öz vücudi durumunu təzələmək üçün çox faydalıdır.

**Həzrət Rəsulallah (s) bu cür davranışın - insanları bağışlamağın və insanlardan bağışlanmaq istəmənin çox böyük nəticələrə gətirib çıxarması barədə bizlərə xəbərdarlıq edir. Həzrət Peyğəmbər (s) buyurur:** "Allahın rəhməti o bəndəyə olsun ki, müsəlman qardaşından o mövzuda ki, onun abrında, malında haqqına girib - Qiyamət günü gəlməmiş halallıq istəyə. O gün ki, həmin gün borcunu ödəmək üçün nə dirhəm var, nə dinar. Həmin gün əgər yaxşı əməllərimiz olsa, yaxşı əməllərimizdən alınıb zülm etdiyimiz kəsə veriləcək. Əgər yaxşı əməllər olmasa, zülm olunan şəxsin günahlarından götürülüb bizim günahlarımıza əlavə olunacaq".

Ona görə də, bizim edə biləcəyimiz ən mühüm əməllərdən biri insanlardan hallallıq istəmək və öz qəlbimizi kin-küdurətdən təmizləməkdir.

## Valideynlərimizə diqqəti artırmaq

İnsanın etməli olduğu ikinci tövsiyə olunan əməl - ata və anası ilə davranışla bağlıdır. Ata və ana mövzusu dinimizdə fövqəladə əhəmiyyətlidir. Belə başa düşülür ki, varlıq aləmində səbəb-nəticələr baxımından, gözə görünən amillərlə yanaşı gözəgörünməz qaydalar, təsirlər də var. Ata və anaya münasibət də o təsirlərdən biridir.

Əgər insanın ata və anası sağdırsa, islahat yoluna çıxan insan valideynləri ilə münasibətinə bir də diqqət yetirməli, Allah etməmiş inciklik, narahatlıqlarına səbəb olmuş bir məsələ varsa, onları aradan aparmalıdır. Səmimi qaydada valideynləri ilə danışmalı və onlara bildirməlidir ki, onlar üçün dua etməyə hazırlaşır, əməllərindən onlara hədiyyə etməyə hazırlaşır və onlardan da onun üçün dua etmələri istəməlidir. Çünki valideynlərin övlad üçün etdiyi dua çox təsirlidir.

Əgər valideynlər dünyalarını dəyişibsə, tövsiyə olunur ki, insan onların qəbirlərini ziyarət etsin. Çünki əgər valideynlər rəhmətə gedibsə, onların hər zamandan daha çox bizim onlar üçün dua etməyimizə, onları ziyarət etməyimizə ehtiyacları var.

Peyğəmbərimiz (s) buyurur: **"O kəs ki, ata və anasını sevindirər - Allahı sevindirmişdir".**

Bizim belə bir məktəbimiz var. Bu gün dünyada belə biz vəziyyət yaranıb ki, uşaqları az qala elə tərbiyə edirlər ki, uşaqlar ata-anasında bir səhv axtarsın ki, tapan kimi onlardan şikayət etsin, onların nəzarətindən məhrum edilsin. Amma bizim mənsub olduğumuzun məktəbin öyrətdiyi dəyərlərə baxaq. Dinimiz ata-ananı sevindirməyi Allahı sevindirmək hesab edir.

## Zəmanə Sahibi (ə.f) ilə münasibətlərimizi qaydaya salmaq

İslahat yolunda diqqət etməli olduğumuz üçüncü əməl - zamanımızın İmamı (ə.f) ilə, Həzrət Məhdi (ə.f) ilə münasibətlərimizə diqqət etməkdir. Bizim hər mənada acizliyimiz budur ki, bizlərin Mövlamızın (ə.f) olmasından qəflətimiz yaranıb, bizim o Həzrətlə (ə.f) təmasımız aradan gedib. Bu yola çıxmağımızın öncəsi Mövlamızla (ə.f) münasibətlərimizi bərpa edək.

Mövla (ə.f) özü buyurur: "Biz sizin halınızdan tam şəkildə xəbərdarıq və sizin hallarınızdan heç nə bizim üçün örtülü və gizli deyil".

Mövlamız (ə.f) bizim hər halımızdan xəbərdardır. Belə isə bizlər Mövlamızla (ə.f) rabitəmizi artıraq. Allahdan istəyimiz budur ki, bizlərə Onun bəyəndiyi halda yaşamağı nəsib etsin!

**Allahım, bizlərə günlərimizin, həyatımızın hesabını çəkməyi, özümüzə düzgün nəzarət etməyi nəsib et!**

**Allahım, bizə Sənə layiq halda olmağı nəsib et!**

**Allahım, bizə hallarımızın yaxşılaşmasını nəsib et! Amin!**

YENİ MÜSAVAT

Son səhifə

N 133 (7022) 22 iyun 2018



# Günəş vannası qəbul edən qadın digərlərindən 2 il artıq yaşayır

İsveçdəki Karolinska Universiteti Xəstəxanası və Lund Universiteti tərəfindən həyata keçirilən bir araşdırma nəticəsində məlum olub ki, tez-tez günəş vannası qəbul edən qadınlar bundan imtina edən həmcinslərindən 2.1 il daha çox yaşayırlar. 20 il boyunca 29 min 518 nəfər qadın üzərində aparılan araşdırma nəticəsində məlum olub ki, günəş vannası ürək və xərçəng xəstəliklərini çıxmaq şərtilə, digər xəstəliklərə yoluxma riskini azaldır. Araşdırmaya rəhbərlik edən doktor Pelle Lindqvist bildirib ki, günəşdən qaçmaq insanın həyatına siqaret qədər böyük və mənfi təsir göstərir. Günəş altında uzanmaq dəri xəstəlikləri riskini azaltsa da, ultrabənövşəyi şüaya məruz qalmaq dəri xərçənginə səbəb olur. İngiltərənin "İndependent" qəzetinin xəbərinə görə, mütəxəssislər günəşə çıxmazdan 30 dəqiqə öncə günəş kremi sürtülməsini məsləhət görürlər. Bundan başqa, günorta saat 11:00 ilə 03:00 arasında güclü günəş şüalarına çıxmamağı məsləhət görürlər.

# Xidmətçi satışa çıxarılıb

**Malayziyanın paytaxtı Kuala-Lumpurda bir çox küçələrdə divarlara vurulmuş elan İndoneziya ilə münasibətləri çox gərginləşdirib. Kuala-Lumpurdakı elanda deyilir: "İndoneziyalı xidmətçi satılır! Ucuz qiymət, sərfəli təklif! Bundan sonra ev işləriniz və mətbəxdə yemək bişirmək problemləriniz olmayacaq".**



"Satışa çıxarılmış indoneziyalı xidmətçi üçün" 3500 rinqqit, yəni 1150 dollar tələb olunurdu. Bundan sonra isə facebook və twitterdə minlərlə malayziyalı həmin elanı yayıblar, indoneziyalıları təhqir ediblər. İndoneziyanın XİN başçısı Marti Nataleqava malayziyalı həmkarına zəng vuraraq bu biabırçı olaydan çox sinirləndiyini bildirib: "İndoneziyalı olduğu iddia edilən adamın satışa çıxarılması biabırçılıq, rəzalətdir".

İndoneziyanın əmək naziri Dita İndah Sari isə Malayziyanın rəhbərliyindən olayla bağlı ən sərt və qəti tədbirlərin görülməsini tələb edib.

# Maddi durumla intellekt arasında əlaqə aşkarlandı

**Kasıblıq insanın bir çox xüsusiyyətlərini əlindən alır. Belə ki, gündəlik olaraq kasıblıqla mübarizə aparan insanın dost çevrəsi və əqli qabiliyyəti azalır. Yaşam qayğılarını həll etməli olan şəxsin təhsil, yeni iş yerlərinin tapılması ilə bağlı düşünməsinin qarşısını alır. Bununla da onun düzgün olmayan qərarlar verməsinə, öz situasiyasını daha da pisləşdirməsinə səbəb olur. Amerikalı alimlərin gəldiyi bu nəticə "Science" jurnalında dərc edilib. Alimlərin yazdığına görə, yaşam dərdi insanların mütaliə və düşünmə qabiliyyətini də əlindən alır. Belə ki, xərcləri artan, borc bataqlığında üzən, kreditlərini necə verməli olduğunu düşünən şəxsin intellektual səviyyəsi də 13 faiz aşağı düşür. Müəlliflər hesab edir ki, kasıbların durumunu yaxşılaşdırmaq üçün səfərbər olan xeyriyyə qurumları onların əqli qabiliyyətinin aşağı düşməsinə də bir çarə tapmalıdır. Bunun üçün bəzi kursların təşkili çıxış yolu kimi göstərilib.**



# Burnundan aldığı mayeni gözündən fışqırdır

**İzmirin Tire bölgəsində günəş enerjisi istehsalı ilə məşğul olan 42 yaşlı Süleyman Bacak qeyri-adi hərəkəti ilə hər kəsi şoka salır. Belə ki, o, burnundan aldığı mayeləri gözündən bayıra fışqırda bilir. S.Bacak 30 ildir ki, bunu edə bildiyini deyir.**

Yaşadığı bu hadisənin səbəbini bilmədiyini və hər kəsin ona heyrətlə baxdığını deyən Bacakın sözlərinə görə, hər şey uşaq yaşlarından başlayıb: "Mən bunu uşaq yaşlarımda hovuza girəndə fərq etdim. Artıq 30 ildir ki, burnumdan aldığım mayeni öz istəyimlə iki gözümdən bayıra çıxara bilirəm. Hər hansı bir göz xəstəliyim yoxdur. Səbəbini isə bilmirəm. Əsgərlik müddətində həkimə gedib, bu vəziyyəti onlara demişdim. O da narahatlıq doğuran heç nə olmadığını söyləmişdi. Mən də bu sözdən sonra bir daha həkimə getmədim. Allaha şükür ki, səhhətimdə heç bir problem yoxdur".




**QOÇ** - Öz fikirlərinizi diqtə edərkən qətiyyən qərəzli mövqe nümayiş etdirməyin. İndiki həssas məqamda inadkarlıq sizi nüfuzdan sala bilər. Saat 16-18 aralığında maliyyə və sənədləşdirmə işlərinə vaxt ayırın.

**BUĞA** - Ətrafdakılarla münasibətlərdən, dolaşıqlıqlardan özünüzü qoruyun. Yeni istehsalat və yaradıcılıq layihələri üzərində işə başlamaqdan vaz keçin. Sevdiyiniz adamlara qarşı qısqanc olmayın, heç olmasa bu gün.

**ƏKİZLƏR** - Sükut etmək və ya mövcud olmayan məsələlər barədə xəyal qurmaq sizə zərərdir. Artıq ayılmaq və irəli şığımaq məqamıdır. Ulduzlar bu gün sizə maliyyə yenilikləri də vəd edir, amma səfərə çıxmaq olmaz.

**XƏRÇƏNG** - Adi bir təbəssüm, xoş bir söz ətrafda olanların sizə münasibətinə müsbət təsir edə bilər. Elə isə sadə görünən bu savaba qol qoyun. İndi sizə nüfuzu yüksəltmək hava və su kimi lazımdır.

**ŞİR** - Həyatınızın ötən dönəmlərində baş verən hadisələrdən nəticə çıxarın. Analitik təhlillər sizə mütləq kömək edəcək. Başqalarını, yaxud həyatın özünü ittiham etməkdənsə, buraxdığınız səhvləri təkrarlamayın.

**QIZ** - Ümumən uğurlu olan bir təqvimlə baş-başasınız. Görəcəyiniz işlərdə bütün addımları təkbaşına atın, amma münasibətləri qorumağı da yaddan çıxarmayın. Axşam saatlarında sürprizlərə hazır olun.

**TƏRƏZİ** - Yeni işlərə başlamaq üçün çox münasib vaxtdır. Ötən yarım ayda reallaşdıra bilmədiyiniz layihələrə yenidən baxmağa dəyər. Göy qübbəsi səfərə çıxmağınızın əleyhinə olsa da, məhəbbətdə uğurlar vəd edir.

**ƏQRƏB** - Bu gün öyrəndiklərinizə etibar etməyin, çünki tezliklə aydın olacaq ki, bu, məkrli təxribat, yaxud saxtalıqdan başqa bir şey deyil. Kütləvi informasiya vasitələrində fakt və həqiqətdən uzaq şayiələrə uymayın.

**OXATAN** - Bu gün ilk növbədə çalışın ki, ətrafınızda sağlam düşüncəli adamlar olsun. Əks təqdirdə yanlışlığa yol verib ovqatınızı pozacaqsınız. Etibalılıq faizi aşağı olan şəxslərin məsləhətlərinə qulaq asmayın.

**OĞLAQ** - Astroloji göstəricilər işlərinizin qaydasına düşdüyünü göstərir. Amma tempi bir az da artırmaq olar. Qərəzdən uzaq olmaqla qarşıda duran vəzifələrin öhdəsindən gələ bilərsiniz. Bu gün duzlu qidalardan uzaq olun.

**SUTÖKƏN** - Təkəbbür və lovğalığın ən müxtəlif təzahürləri güclənə bilər. Bu səbəbdən mübahisə və yalanlardan qaçmalısınız. Gün ərzində pulla bağlı risk etməyin, yeni təklifləri dəyərləndirmək üçün vaxt istəyin.

**BALIQLAR** - Bürcünüzdəki planetar mənzərə yüksək təcavüzkarlıq və dava-dalaşa qoşulmaq ehtimalından xəbər verir. Bu səbəbdən gün ərzində daha çox tənhalığa qurşanın. Ulduzlar şəxsi büdcənizdə dönüşdən xəbər verir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Banan kartofun yerini tutacaq?



**BMT-nin Ərzaq Təhlükəsizliyi Komitəsi yeni bir araşdırmanın nəticələrini ortaya qoyub. Nəticələrə görə, yaxın illərdə milyonlarla insanın əsas qida maddəsi banan olacaq və bununla da kartofun yerini tutacaq. Ən rahat soyuq iqlimlərdə yetişən kartofun istehsalı sırf qlobal istiləşməyə görə zərbə alacaq. Mütəxəssislər bu səbəbdən düşünür ki, iqlimdəki bu dəyişikliklər sayəsində hazırda kartof yetişdirən ölkələr bundan sonra kartofa keçəcək. Sənədi hazırlayan professorlardan Filip Thornton, BBC-yə açıqlamasında deyib ki, "Bu, sehirli bir çıxış yolu deyil. Amma temperaturun yüksəldiyi bölgələrdə banan yetişdirmək yaxşı çıxış yoludur". Bundan başqa, ən kalorili üç dənəli bitkinin - darı, un və buğdanın istehsalı da gələcəkdə azalacaq.**

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100